20 YANVAR 1990

№ 3 (946) 19-25 yanvar 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilә | Qəzet 1999-cu ildən çıxır

# PREZİDENT İLHAM ƏLİYEV DAVOS İQTİSADİ FORUMUNDA




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirak etmək üçün yanvarın 16-da İsveçrə Konfederasiyasına işgüzar səfəri başlayıb.

Dövlətimizin başçısı səfər çərçivəsində yanvarın 16-da Davosda Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti, McKinsey şirkətinin qlobal idarəedici tərəfdaşı Dominik Barton, yanvarın 17-də Davosda "Procter and Gamble Europe" şirkətinin prezidenti Geri Edrü Kumbe, Norveç Krallığının xarici işlər naziri Borge Brende, "Suez Group" şirkətinin baş icraçı direktoru Jan Lui Şasod, İsveçrə Konfederasiyasının Prezidenti xanım Doris Löythard, Böyük Britaniyanın BP şirkətinin baş icraçı direktoru Robert Dadli, Lüksemburqun Baş naziri, dövlət naziri Ksavyer Bettel, Birləşmiş Ərəb Əmirliklərinin "VPS Healthcare" şirkətinin direktoru Şamşir Vayalil, "LafargeHolcim" şirkətlər qrupunun rəhbəri Erik Olsen və CISCO şirkətinin icraçı sədri Con Çambers ilə görüşmüşdür.

* * * * *

Yanvarın 16-da Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvabın adından Dünya İqtisadi Forumunda on dəfədən artıq iştirak edən rəhbər şəxslər üçün qəbul təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda iştirak edib. Dövlətimizin başçısı İlham Əliyev tədbir çərçivəsində Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab ilə görüşüb.

Xatırladaq ki, ötən il Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab Dünya İqtisadi Forumunda onuncu dəfə iştirak etdiyinə görə Davos fəxri üzvlər klubunun nişanını Prezident İlham Əliyevə təqdim etmişdi.

## PREZİDENT İLHAM ƏLİYEV: AZƏRBAYCANIN 2017-Cİ İL ÜÇÜN İQTİSADİ PRİORİTETLƏRİ

*Yanvarın 12-də Davos İqtisadi Forumunun rəsmi saytında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanın 2017-ci il üçün iqtisadi prioritetləri" sərlövhəli məqaləsi verilib. Həmin məqaləni nəzərinizə çatdırırıq.*

* * * * *

Son illər ölkə həyatının bütün sahələrində reallaşdırılan məqsədyönlü tədbirlər öz uğurlu nəticələrini verib.

İqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən enerji sahəsində qlobal əhəmiyyətli layihələrin icrası ölkəmizin imkanlarını artırmaqla yanaşı, regional və beynəlxalq əməkdaşlığın inkişafı işinə də xidmət edir. Bu baxımdan Azərbaycanın təşəbbüsü və liderliyi ilə icra olunan "Cənub Qaz Dəhlizi" layihəsi Azərbaycan qazını Avropa bazarlarına çatdırmaqla Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə də öz dəyərli töhfəsini verəcək. Layihə çərçivəsində "Şahdəniz-2" qaz-kondensat yatağının işlənməsi üzrə işlərin 87 faizi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi üzrə işlərin 72 faizi, Trans-Anadolu Boru Kəmərinin (TANAP) inşası üzrə işlərin 60 faizi, Trans-Adriatik Boru Kəmərinin (TAP) inşası üzrə işlərin 30 faizi icra edilib. Qeyd etmək lazımdır ki, "Şahdəniz" yatağı təsdiq edilmiş qaz ehtiyatı ən azı 1,2 trilyon kubmetr olan dünyanın ən böyük qaz yataqlarından biridir.

Azərbaycanda tranzit potensialının reallaşdırılması istiqamətində də mühüm layihələrin icrasına başlamışıq. Bu il Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisi başa çatmalıdır. Bu layihənin icrası Çindən Avropaya yüklərin çatdırılma müddətinin 25-30 gündən 12-15 günə endirilməsinə imkan verəcək. Şimal-Cənub nəqliyyat dəhlizi çərçivəsində isə ötən il Azərbaycan ərazisində bütün tikinti işləri başa çatdırılıb. Beləliklə, Azərbaycan çox mühüm nəqliyyat qovşağına çevrilməkdədir. Hazırda iqtisadi siyasətin prioritetləri iqtisadiyyatın daha da şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafıdır.

Sənayenin inkişafı məqsədilə sənaye parklarının və zonalarının yaradılması işləri aparılmaqdadır. 2018-ci ildə Sumqayıt Kimya Sənaye Parkında investisiya dəyəri 2 milyard ABŞ dollarına yaxın olan bir neçə sənaye müəssisəsi açılacaq. Pambıq, tütün, fındıq, çay, barama və digər ixracyönümlü məhsulların istehsalı artırılacaq, bir neçə aqropark və iri fermer təsərrüfatlarının yaradılması davam etdiriləcək. İnformasiya sektorunun inkişafı məqsədilə xidmətlərin keyfiyyətinin, ölkənin tranzit informasiya dəhlizi potensialının artırılması davam etdiriləcək. Son zamanlar elektron vizaların verilməsi, "Tax free" sisteminin tətbiqi, Birinci Avropa Oyunları və Formula-1 kimi mötəbər tədbirlərin keçirilməsi ölkədə turizmin inkişafına əhəmiyyətli töhfə verir.

Eyni zamanda, qeyd etmək lazımdır ki, əldə etdiyimiz real uğurlarla yanaşı, çağırışlarla da üzləşmişik. Qlobal iqtisadi böhran prosesləri Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərib, gəlirlər azalıb və ötən il ərzində milli valyuta 10,1 faiz ucuzlaşıb. Lakin adekvat addımlar ataraq biz bu çətinliklərin öhdəsindən uğurla gəlirik. Daha dayanıqlı inkişafa nail olmaq üçün "Strateji Yol Xəritəsi" təsdiqlənib, struktur, institusional, pul-kredit, maliyyə və digər istiqamətlərdə dərin islahatlar aparılır, vergi və gömrük sahəsində idarəetmə təkmilləşdirilir, bütün sahələrdə şəffaflıq təmin edilir. Misal üçün, ötən ilin 10 ayında ticarət dövriyyəsinin azalmasına baxmayaraq, gömrük rüsumlarının toplanan həcmi 53 faiz artıb.

Azərbaycanın gücü təkcə iqtisadiyyatla məhdudlaşmır: Azərbaycan çoxmillətli bir ölkədir. Əsrlər boyu burada müxtəlif etnik qruplar və dini icmaların nümayəndələri sülh, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşayıblar. Azərbaycanda tolerantlıq ruhu daim hökm sürüb və 2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan olunub. Ölkəmiz artıq sivilizasiyalar, dinlər və mədəniyyətlərarası dialoqa həsr olunmuş mötəbər beynəlxalq tədbirlərin keçirildiyi mühüm bir məkana çevrilib. Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakı şəhərində uğurla təşkil olunması bunun yaxşı nümunəsi və dünya ölkələrinin Azərbaycandakı multikulturalizm mühitinə olan münasibətinin real ifadəsi idi. Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusilə qeyd etmək lazımdır. (davamı səh. 2-də)



# PREZİDENT İLHAM ƏLİYEV: AZƏRBAYCANIN 2017-Cİ İL ÜÇÜN İQTİSADİ PRİORİTETLƏRİ




(əvvəli səh. 1-də)

Bu tarixi səfər zamanı Roma Katolik Kilsəsinin rəhbəri dünyaya çox açıq mesajlar göndərdi. Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi. Ölkə həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan idman sahəsində də böyük uğurlar əldə edib. Paytaxtda və regionlarda ən müasir Olimpiya idman kompleksləri və digər idman infrastrukturu yaradılıb. Dövlət səviyyəsində idmana göstərilən qayğı və ölkədə ən müasir infrastrukturun yaradılması gənc nəslin idmana olan marağını böyük dərəcədə artırıb. İdmançılarımızın ən mühüm beynəlxalq idman tədbirlərində uğurlu iştirakı bu gün artıq yaxşı ənənəyə çevrilib və Azərbaycan idmançıları Rio Olimpiya Oyunlarında bunu bir daha sübut ediblər. İdmançılarımız 18 medal qazanaraq medalların sayına görə dünyada 14-cü, Avropada 7-ci, postsovet məkanında 2-ci, müsəlman ölkələri içərisində isə birinci yeri qazanıb. Azərbaycan, həmçinin mötəbər idman tədbirlərinə ev sahibliyi edən dünyanın tanınmış ölkələrindən biridir. Ölkəmizdə 2015-ci ildə ilk Avropa Oyunları və Bakıda 2016-cı ildə dünyada 500 milyon insanın izlədiyi Formula-1 Qran-Pri yarışları keçirilib. Bu il yenidən beynəlxalq idman aləminin diqqəti Azərbaycanda olacaq. 2017-ci ildə ölkəmizdə İslam Həmrəyliyi Oyunları keçiriləcək. İdman sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsinə böyük töhfə verəcək bu tədbirlər həm də Azərbaycana gələn turistlərin sayını xeyli dərəcə artıracaq, bununla da ölkəmizdə turizm sektorunun inkişaf etdirilməsi işinə xidmət göstərəcək.

Mən əminəm ki, 2017-ci il Azərbaycan iqtisadiyyatının inkişaf ili olacaq. Biz səmərəli iqtisadi islahatların həyata keçirilməsini davam etdirəcəyik. Eyni zamanda, sosialyönümlü təşəbbüslərin maliyyələşdirilməsini artıracağıq. İqtisadiyyatın şaxələndirilməsi işi demək olar ki, başa çatmaqdadır. Hazırda ölkəmizin ümumi daxili məhsulunun 70 faizi qeyri-neft sektorunun payına düşür. Bu gün bizim qarşımızda duran əsas məqsəd ixracın şaxələndirilməsidir. 2016-cı ildə atdığımız addımlar bu məqsədə nail olunması işinə xidmət edəcək. Azərbaycan artıq Dünya İqtisadi Forumunun Qlobal Rəqabət Qabiliyyətliliyi İndeksinə görə 37-ci yerdədir (MDB ölkələri sırasında 1-ci yerdə) və biz bu uğuru daha da möhkəmləndirmək əzmindəyik.

# TANAP layihəsinə kredit ayrılmasına dair müqavilə imzalandı




Yanvarın 16-da Azərbaycan Respublikası Hökuməti, "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyəti (CQD) və Dünya Bankı arasında Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) layihəsinin dəstəklənməsi məqsədilə kredit ayrılmasına dair müqavilə imzalanıb.

400 milyon ABŞ dolları məbləğində olan kredit sazişini CQD-nin baş direktoru Əfqan İsayev və Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Merci Tembon, kredit müqaviləsinə dair zəmanət sazişini isə Azərbaycan Hökuməti adından maliyyə naziri Samir Şərifov və xanım Merci Tembon imzalayıb.

Maliyyə naziri Samir Şərifov imzalanma mərasimində bildirib ki, beynəlxalq maliyyə qurumları ard-arda "Cənub Qaz Dəhlizi" layihəsinin həyata keçirilməsi üçün dəstək verir və bu, dünya miqyasında Azərbaycana, onun liderliyi və təşəbbüskarlığı ilə reallaşdırılan "Cənub Qaz Dəhlizi" layihəsinə inam və etibarın bariz nümunəsidir. Nazir xatırladıb ki, Dünya Bankından başqa, Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankı tərəfindən də müvafiq maliyyə dəstəkləri təsdiqlənib: "Prezident İlham Əliyev layihənin təkcə Azərbaycan üçün deyil, Avropa və regionun enerji təhlükəsizliyi üçün xüsusi önəm daşıdığını vurğulayıb. Bu layihənin reallaşdırılmasında aparıcı qüvvə məhz Azərbaycan Respublikasıdır".

Nazir "Cənub Qaz Dəhlizi" layihəsinin iqtisadi və kommersiya cəhətdən də çox səmərəli olduğunu qeyd edərək bu istiqamətdə bir sıra investorlarla da iş aparıldığını xatırladıb. Bildirib ki, Dünya Bankından və digər mənbələrdən cəlb olunan kreditlər gələcəkdə bu layihədən əldə ediləcək gəlirlər hesabına "Cənub Qaz Dəhlizi" şirkəti tərəfindən ödəniləcək. Buna baxmayaraq, layihənin tezliklə icra olunmasını nəzərə alaraq hökumət tərəfindən kredit sazişinə zəmanət verilir.

Dünya Bankının regional direktoru Merci Tembon isə Dünya Bankı və Azərbaycanın heyətlərinin aylar ərzində apardıqları gərgin işin nəticəsi olaraq TANAP üzrə hüquqi sazişlərin imzalanmasından məmnunluqlarını ifadə edib: "Biz əminik ki, bu layihə ölkənin regional ticarətdə rolunu və rəqabətqabiliyyətini gücləndirmək və ixracını genişləndirməklə Azərbaycan xalqına çoxlu fayda gətirəcək".

Xanım M.Tembon bu əməkdaşlığın onlarda böyük ruh yüksəkliyi yaratdığını qeyd edərək, etibarlı tərəfdaş kimi Azərbaycanla bundan sonra da əlaqələrin genişləndirilməsində maraqlı olduqlarını deyib.

"Cənub Qaz Dəhlizi" layihəsinin məqsədi "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi, bu zaman hasil ediləcək təbii qazın genişləndiriləcək "Cənubi Qafqaz Qaz" boru kəməri və yeni tikiləcək TANAP və Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Türkiyə və Cənubi Avropaya ixracını təmin etməkdir. Layihədə iştirak edən bütün ölkələr üçün "Cənub Qaz Dəhlizi"nin vacibliyini nəzərə alaraq, bir sıra beynəlxalq maliyyə institutları, o cümlədən Dünya Bankı ilə birgə maliyyələşdirən Asiya İnfrastruktur İnvestisiya Bankı bu layihəni dəstəkləyir.

Qeyd etmək lazımdır ki, "Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Respublikası Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 25 fevral 2014-cü il tarixli, 287 nömrəli Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

# "CASPIAN PHARMED" 84 ÇEŞİDDƏ DƏRMAN VASİTƏSİ İSTEHSAL EDƏCƏK

*Pirallahı Sənaye Parkında yeni əczaçılıq zavodunun təməli qoyulub*




Yanvarın 16-da Bakıda Pirallahı Sənaye Parkında sayca ikinci - "Caspian Pharmed" əczaçılıq zavodunun təməlqoyma mərasimi keçirilib.

Bu münasibətlə Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayevin və ölkəmizdə səfərdə olan İran İslam Respublikasının kooperasiya, əmək və sosial rifah naziri Əli Rəbiinin iştirakı ilə keçirilmiş tədbirdə "Caspian Pharmed" əczaçılıq zavodunun yaradılmasına dair "Azərbaycan İnvestisiya Şirkəti" ASC, "Azərsun Holding" Şirkətlər Qrupu və İranın "TPİCO Holding" Şirkətlər Qrupu arasında Səhmdarlar Sazişi imzalanıb. Sənədə əsasən, Pirallahı Sənaye Parkında əczaçılıq zavodunun tikintisi məqsədilə yaradılmış "Caspian Pharmed" birgə müəssisəsində layihənin tərəfdaşları "TPİCO" (İran İslam Respublikası) 49 faiz, "Azersun Holding" (Azərbaycan) 26 faiz, Azərbaycan İnvestisiya Şirkəti 25 faiz pay sahibinə malikdirlər.



Layihə 3 mərhələdən ibarət olacaq. Birinci mərhələdə həb və kapsul istehsalı, ikinci mərhələdə ampula və flakon istehsalı, üçüncü mərhələdə isə antibiotik dərmanlarının istehsalı həyata keçiriləcək. Tədbirdə "Caspian Pharmed" əczaçılıq zavodunun təqdimatı keçirilib. Bildirilib ki, ilkin mərhələdə 20,6 milyon ABŞ dolları investisiya qoyulacaq müəssisədə ağrıkəsici, ürək-damar xəstəlikləri, qeyri-steroid iltihab əleyhinə vasitə, antihistamin kateqoriyalı dərman vasitələri, həmçinin vitaminlər və qida əlavələri istehsal ediləcək. İlkin mərhələdə zavodda 54 təsiredici maddə üzrə 84 çeşiddə dərman vasitəsi istehsal olunacaq. Zavodun illik istehsal gücü birinci mərhələdə 201 milyon ədəd həb və kapsul təşkil edəcək. Gələcəkdə istehsalın genişləndirilməsi nəzərdə tutulur.

Layihənin reallaşdırılmasında Avropanın aparıcı şirkətlərinin mühəndis-layihələndirmə işlərindən, qabaqcıl texnologiya və avadanlıqlardan istifadə olunacaq. Əczaçılıq zavodu yüksəksteril mühit, avtomatlaşdırma və öz sinfində ən yaxşı istehsal həllərinə malik yeni nəsil dərman istehsalı üzrə GMP istehsalat praktikası və digər beynəlxalq standartlara cavab verəcək.

"Caspian Pharmed" əczaçılıq zavodu Azərbaycanda əczaçılıq sənayesinin inkişafında əhəmiyyətli rol oynamaqla yerli istehsal hesabına əhalini keyfiyyətli dərman məhsulları ilə təmin edəcək, bu sahədə idxaldan asılılığı azaldacaq və ixrac potensialını artıracaqdır. Zavodun fəaliyyəti nəticəsində 90 nəfər daimi iş yeri ilə təmin olunacaq.

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Şahin Mustafayev və İran İslam Respublikasının kooperasiya, əmək və sosial rifah naziri Əli Rəbiinin iştirakı ilə "Caspian Pharmed" əczaçılıq zavodunun təməli qoyulub.

Tədbir çərçivəsində, həmçinin "Caspian Pharmed" birgə müəssisəsinə Pirallahı Sənaye Parkının rezidenti statusu da təqdim edilib.

Qeyd edək ki, əczaçılıq sahəsi üzrə ixtisaslaşan Pirallahı Sənaye Parkı Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 2016-cı il tarixli sərəncamı ilə yaradılıb. Artıq noyabrın 2-də Pirallahı Sənaye Parkında Azərbaycan-Rusiya birgə müəssisəsi olan "Hayat Pharm" əczaçılıq zavodunun təməli qoyulub. Hazırda ölkəmizdə əczaçılıq sənayesinə maraq göstərən bir sıra Avropa ölkələrinin, Türkiyə və Yaponiyanın aparıcı şirkətləri ilə danışıqlar aparılır.

# İran "Caspian Pharmed" əczaçılıq zavoduna 11 mln. dollar sərmayə yatıracaq

İran tərəfi Azərbaycanda inşa olunacaq "Caspian Pharmed" əczaçılıq zavoduna 11 mln. dollardan çox sərmayə yatıracaq.

Bunu Bakıda səfərdə olan İranın kooperasiya, əmək və sosial rifah naziri Əli Rəbii jurnalistlərə açıqlamasında deyib.

İranlı nazir bildirib ki, əsas hədəf zavod istehsala başlayandan sonra Azərbaycanın dərman idxalından asılılığını aradan qaldırmaqdır: "Gələcəkdə qonşu ölkələr - Rusiya, Gürcüstana, Qazaxıstan və digər Mərkəzi Asiya ölkələrinə 1 mln. dollar dəyərində dərman ixrac ediləcək".

Perspektivdə Azərbaycanla iqtisadi əməkdaşlığın daha da genişləndiriləcəyini vurğulayan nazir qeyd edib ki, turizm, yol infrastrukturu və digər sahələrdə birgə fəaliyyət nəzərdə tutulub.

## Azərbaycanın 3-cü böyük şəhərində lüks mehmanxana açılır

**"Sumqayıt Plaza Hotel" tezliklə fəaliyyətə başlayacaq.**

Bunu otelin baş direktoru Raqif Dadaşov bildirib.

"Biz çox tezliklə qonaqlarımızı salamlamağa hazır olacağıq", - o deyib. Azərbaycanın 3-cü böyük şəhərində fəaliyyətə başlayacaq mehmanxana 88 lüks nömrədən ibarətdir.

Sumqayıt şəhərinin mərkəzində yerləşən Sumqayıt Plaza Mehmanxanasından bulvara, şəhərin mərkəzinə və dənizə gözəl mənzərə var. Sumqayıt Plaza Mehmanxanasında "Mirvari" Restoranı, "Sky" Bar, ənənəvi Azəri çay guşəsi və SPA fəaliyyət göstərəcəkdir.



# "Təhsil-tədqiqat-innovasiya" formatında UNEC: qlobal çağırışlar və real imkanlar

*"İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq, görərik ki, o uğurların təməlində intellektual potensial, texnoloji tərəqqi, elmin inkişafı və təhsil səviyyəsi dayanır.*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

*(əvvəli ötən sayımızda)*

**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) magistratura pilləsində yeni standartların tətbiqi**

Qabaqcıl beynəlxalq təcrübə əsasında təhsilin pillələri və səviyyələri üzrə keyfiyyət standartları və göstəricilərinin hazırlanması, Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) 2016/2017-ci tədris ilindən başlayaraq magistratura pilləsində yeni standartların tətbiqinə başlanılıb. Yeni standartlara əsasən, UNEC-in magistratura pilləsində 15 ixtisas üzrə tədris Avropa Kredit Transfer Sisteminin (AKTS) tələblərinə və bu sistemə qoşulan ölkələrin təcrübəsinə əsaslanaraq aparılacaq. Yeniliklərdən biri ondan ibarətdir ki, təhsil standartlarına uyğun keçirilən hər bir fənnin kreditlərinin sayı Avropa Kredit Transfer Sisteminə uyğun olaraq, 6 AKTS olaraq müəyyənləşdirilib. Yeni standartlarla təhsil alan magistrlər dünyanın bir çox qabaqcıl universitetlərinə beynəlxalq təqaüd və mübadilə proqramları ilə müraciət edə biləcək və tədris olunan fənlərin uyğunlaşdırılmasında heç bir mane ilə rastlaşmayacaqlar. Magistratura təhsil pilləsi üzrə tətbiq olunan yeni standartların əsas məqsədi tədqiqatyönümlü və elmi araşdırmalar apara bilən akademik kadr yetişdirməkdir. Bu məqsədlə təhsil proqramında nəzəri təlimə ayrılan həftə sayı 30-a endirilir, magistr dissertasiyası və elmi tədqiqatlar üçün həftələr artırılır. Tələbə iki semestr – hər semester 5 dərs olmaqla (bunlardan hər semester 3 məcburi, 2 seçmə fənn), ümumilikdə 60 AKTS-lik tədris müddətini başa vurur. 3-cü semestrdə magistrlərə "Tədqiqatlar, kommunikasiya və innovasiya" fənni tədris edilir. Dərs zamanı magistr elmi rəhbər ilə birliktə tədqiqatlar aparır, kommunitivlik bacarıqlarını, eyni zamanda, tələbə-qiymətləndirmə metodlarını və dərslərdə akademik kadr olaraq iştirakı aktiv şəkildə öyrənir, elmi rəhbərlə bərabər, dərslərin tədrisində iştirak edir. 3-cü semestrin sonunda magistr dissertasiya işi ilə bağlı elmi rəhbərə hesabat verərək qiymətləndirilir. 4-cü semestrdə "Tədqiqat işinin aparılması" fənni tədris olunmaqla yanaşı, magistrlər elmi tədqiqat və elmi pedaqoji təcrübələrdə iştirak edir, dissertasiya işini hazırlayır. Fənnin tədrisinin ən əsas məqsədi magistrlərə elmi məqalə və məruzələrin hazırlanması, tədqiqat prosesinin aparılması, bu proses zamanı müasir proqram təminatı vasitələrindən və analiz metodlarından istifadənin öyrədilməsidir. Magistr dissertasiya işinin müdafiəsi ilə 120 AKTS-lik magistr təhsil proqramını tamamlayaraq məzun olur. Magistr pilləsində akademik kadr, müasir, yüksək keyfiyyətli və beynəlxalq təcrübəli elmi tədqiqatçılar hazırlamaq üçün bütün ixtisaslar üzrə "Tədqiqat metodları" fənni məcburi dərs olaraq keçiləcək. Fənnin tədrisi beynəlxalq təhsil sisteminə inteqrasiyanı, müəllim-tələbə mübadiləsini də genişləndirəcək.

Standartlara uyğun olaraq müəyyənləşdirilən "Tədqiqat Metodları" və ixtisaslar üzrə müasir problemlər fənlərindən əlavə, digər fənlər "ali məktəb tərəfindən müəyyən edilən fənlər" blokuna daxil ediləcək. İxtisas və müvafiq ixtisaslaşmalar üzrə səriştələr (kompetensiyalar) və buna müvafiq fənlər isə ali təhsil müəssisələri tərəfindən müəyyənləşdiriləcək.

Yeni tədris proqramına əsasən, magistratura pilləsində məşğələ dərslərinin məsləhət saatları şəklində müzakirələrlə əvəz edilməsi, mühazirə və seminarların isə birləşdirilməsi nəzərdə tutulub.

**UNEC-də kadr potensialının gücləndirilməsi**

Kadr potensialının gücləndirilməsi istiqamətində UNEC-də bir sıra mühüm addımlar atılmışdır, o cümlədən:

- UNEC-də doktorantura təhsil pilləsi üzrə yeni standartlar, tədris planları, yaddaş kitabçası hazırlanıb və Təhsil Nazirliyinə təqdim edilib;
- dissertasiyaların keyfiyyətinin yüksəldilməsi məqsədilə UNEC-də Ekspertiza Komissiyası yaradılıb. Ekspertiza Komissiyasının müvafiq rəyindən sonra dissertasiyalar müzakirə üçün kafedralara göndərilir;
- plagiat hallarının qarşısının alınması məqsədilə bütün dissertasiyaların Antiplagiat proqramı vasitəsilə monitorinqi həyata keçirilir;
- ingilis dili üzrə doktoranturaya qəbul və doktorluq imtahanları British Council tərəfindən təşkil edilir;
- təhsilverənlərin elmi-pedaqoji biliklərinin artırılması və müasir tədris bacarıqlarının inkişaf etdirilməsi məqsədilə Paris Sorbon Universiteti - Abu Dabi və Türkiyənin Uludağ Universitetinin professorları UNEC-in Quba Tədris, İdman və İstirahət Kompleksində keçirilən Qış məktəbləri çərçivəsində UNEC müəllimlərinə təlimlər keçirilir;
- təcrübəli professorların silsiləvi nümunəvi açıq dərsləri və innovativ tədris texnologiyalarından səmərəli istifadə edən müəllimlərin master klassları (4 dildə) keçirilir.
- UNEC-in üç əməkdaşı ABŞ Dövlət Departamentinin Hubert H.Humphrey, Fulbright və Beynəlxalq Liderlik Proqramları çərçivəsində uzunmüddətli ixtisasartırma və tədqiqat kurslarında iştirak edib.

Fulbright proqramı çərçivəsində UNEC-də uzunmüddətli səfərdə olan 2 Amerikalı mütəxəssis tədris prosesinə cəlb olunub.

UNEC-də plagiat halları ilə mübarizənin gücləndirilməsi məqsədi ilə müxtəlif tədbirlər görülür. Bu baxımdan UNEC tədris vəsaitlərində, dissertasiyalarda və digər elmi işlərdə plagiatın qarşısının alınması və aşkar edilməsi məqsədi ilə Polşanın beynəlxalq "Plagiat.pl" şirkəti ilə sıx əməkdaşlıq edir.

UNEC-də tələbələrin elmi-tədqiqat fəaliyyətinin aktuallığı artmaqdadır. Tələbələrin elmi araşdırmaları tədrisdə əldə olunmuş biliklərin reallaşdırılması, fərdi və yaradıcı imkanlarının nümayiş etdirilməsinə imkan yaradır. UNEC-də tələbələrin elmi tədqiqat işləri tədris prosesinin davamına və dərinləşdirilməsinə xidmət edir və ali təhsil müəssisəsinin kafedra, laboratoriya, elmi tədqiqat mərkəzləri və institutlarında təşkil olunur. Tələbə elmi tədqiqat işlərinə rəhbərliyi UNEC-in professor və müəllimləri, elmi bölmələrinin əməkdaşları və doktorantlar həyata keçirir. UNEC-də tələbələrin elmi işlər sahəsində fəallığını artırmaq üçün aşağıda qeyd olunan işlər görülür:

• tələbə elmi işlərin praktiki əhəmiyyəti artırılır;
• nəticələrin elmi jurnal və məcmuələrdə nəşr olunmasına imkanlar yaradılır;
• tələbələrlə professor-müəllim heyəti, elmi işçilərlə davamlı elmi əlaqələr yaradılır;
• gələcəkdə elmi fəaliyyətə cəlb olunacaq istedadlı, bacarıqlı tələbələrin seçimi aparılır;
• tələbələrin mənəvi həvəsləndirmə sistemi tətbiq olunur.

Qeyd olunanlarla yanaşı, magistratura pilləsində təhsil standartlarının insan kapitalının inkişafı çağırışlarına cavab verməsi istiqamətində yeni addımların atılması və ümumi təhsilin keyfiyyət göstəricilərinin yüksəlməsi Avropa standartlarına uyğun tərtib edilmişdir.




**UNEC-lə AMEA arasında əlaqələrin genişləndirilməsi**

Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının elm sahəsində dövlət siyasətini həyata keçirən ali elmi təşkilatdır. Bu baxımdan UNEC-lə AMEA arasında əlaqələrin qurulması mühüm əhəmiyyət kəsb edir. 2016-cı ilin iyun ayının 7-də Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) birgə təşkilatçılığı ilə "Elm və təhsilin vəhdəti: qlobal çağırışlar və lokal imkanlar" mövzusunda elmi konfrans keçirilib. Konfransda müzakirələr aparılıb, müxtəlif təkliflər səsləndirilib. Bildirilib ki, AMEA ilə UNEC-in vahid kitabxana şəbəkəsinin yaradılması, dərslik hazırlığı və birgə tədqiqatların aparılması elm və təhsilin vəhdətini təmin etməkdə vacib rol oynayacaq. Sonda AMEA ilə UNEC arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanıb. Sənəddə birgə elmi-tədqiqatların aparılması, onların tədris prosesində tətbiqi, tanınmış alimlərin tədris prosesinə cəlb edilməsi, tədris-metodiki ədəbiyyatın işlənib hazırlanması və digər məsələlər öz əksini tapıb.

Bundan başqa, dekabrın 21-də Azərbaycan Milli Elmlər Akademiyasında AMEA-nın Ümumi yığıncağı və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının birgə elmi sessiyası keçirilib. Tədbirdə elm və təhsilin ölkəmizin davamlı inkişafındakı rolu, bu sahədə aparılan islahatlar, mövcud problemlər və problemlərin həll yolları müzakirə olunub. Elmi sessiyada UNEC rektoru prof.Ə.C.Muradov çıxış edib və qeyd edib ki, UNEC qarşısında duran əsas vəzifə təhsilin və elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi, ixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanmasının təmin olunmasıdır. Məqsəd UNEC-i "Tədqiqat universitetinə" çevirməkdir. Hal-hazırda UNEC ilə AMEA arasında elm və təhsil sahəsində əməkdaşlıq haqqında imzalanan protokola uyğun olaraq, iki təşkilat arasında elm və təhsilin inteqrasiyası üzrə birgə Fəaliyyət Planının hazırlanması mövzusunda işçi qrupu çalışır.

**UNEC-in beynəlxalq elmi təşkilat və xarici universitetlərlə əməkdaşlığı**

UNEC-in beynəlxalq əlaqələrinin genişləndirilməsi istiqamətində bir sıra əhəmiyyətli işlər görülmüş, ilk dəfə olaraq dünya universitetlərinin nüfuzlu reytinqlərində UNEC-in iştirakı təmin olunmuş, dünyanın qabaqcıl təhsil müəssisələri ilə əlaqələrin qurulması və möhkəmləndirilməsi, müəllim və tələbə mobilliyinin təşkil olunması istiqamətlərində mühüm nəticələr əldə olunmuşdur.

UNEC-in dünyanın nüfuzlu ali təhsil müəssisələri arasında layiqli yer tutması istiqamətində mühüm addımlar atılmışdır. Belə ki, QS İnkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya regionu üzrə reytinqdə regionun 4-cü ən yaxşı iqtisadyönümlü universiteti olmaqla ən yaxşı 200 universitet arasında qərarlaşıb.

2016-cı il iyunun 14-də açıqlanan reytinq regionun 30 ölkəsinin 500-dən çox universitetini əhatə etmişdir. Reytinq 9 indikator üzrə aparılıb: akademik reputasiya, məqalə üzrə sitat sayı, işəgötürənlərin reputasiyası, müəllim-tələbə nisbəti, elmi dərəcəsi olan müəllimlərin sayı, əcnəbi müəllimlərin sayının yerli müəllimlərin sayına olan nisbəti, əcnəbi tələbələrin yerli tələbələrə olan nisbəti, veb təsir və məqalə sayının müəllim sayına olan nisbəti.

Veb təsir, yəni universitetlərin yeni texnologiyalardan səmərəli istifadəsi indikatoru üzrə reytinqdə UNEC-in internet resurslarının effektivliyi 52.6 balla qiymətləndirilib. Burada əsas olaraq Webometrics qiymətləndirmələri götürülür ki, 2015-ci ilin ikinci yarısı və 2016-cı ilin ikinci yarısı üçün reytinqdə UNEC ölkə üzrə birinci yerdə qərarlaşmışdır.

İşəgötürənlərin reputasiyasında ötən illərin göstəricilərinə nisbətən xeyli irəliləyiş var. Bu indikator üzrə ümumilikdə 2016-cı il üçün 44200-dən çox rəy toplanıb. Müxtəlif biznes qurumlarının verdiyi səsvermə əsasında UNEC-in yekun balı 22.2 olub. Qiymətləndirmə universitet məzunlarının müxtəlif müəssisələrə işə götürülməsinin təhlil olunmasına köməklik göstərir. Müəllim və tələbə sayı nisbəti indikatoru üzrə bal 22.1 olub. Burada müəllim heyəti sayının tələbə sayına olan nisbəti əsas götürülür. Müəllim sayına düşən məqalələrin orta sayının göstəricisi 1.1 olub ki, bu da Azərbaycan ali təhsil müəssisələri arasında ikinci ən yaxşı göstəricidir. Bura ali təhsil müəssisələrinin SCOPUS bazasında indeksləşən məqalələrin sayı daxildir. Bu indikator üzrə UNEC-in irəliləməsinə əsas səbəblərdən biri bu ildən etibarən UNEC-də ilk dəfə olaraq, pedaqoji heyətin motivasiyasını təmin etmək və müəllimlər arasında rəqabət mühitini gücləndirmək məqsədilə tətbiq olunan diferensial əməkhaqqı sistemi olub.

Elmi dərəcəsi olan müəllimlərin sayı indikatoru üzrə də UNEC irəliləyiş əldə edib. Fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri olan müəllimlərin sayının ümumi müəllimlərin sayına olan nisbəti 55.9% təşkil edir ki, bu da UNEC-ə 10.4 bal qazandırıb.

Əcnəbi müəllimlərin sayının yerli müəllimlərin sayına olan nisbəti indikatoru üzrə alınan bal 10.8, əcnəbi tələbələrin sayının yerli tələbələrin sayına olan nisbəti indikatoru üzrə isə toplanan bal 4.9 olub.

Ali təhsil müəssisələrinin web resurslarda iştirakını qiymətləndirən Webometrics dünyanın ali təhsil müəssisələrinin ən nüfuzlu reytinqlərindən biridir. 2015-ci ilin ikinci yarısı və 2016-cı ilin birinci yarısında açıqlanan siyahılara "Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) liderlik etmişdir.

2016-cı ilin aprel ayında UNEC ilə Montpellier Universiteti arasında ikili diplom haqqında razılaşma imzalanmışdır. Razılaşmaya əsasən, UNEC-in "İqtisadiyyat", "Dünya İqtisadiyyatı", "Maliyyə", "Mühasibat" və "Biznesin təşkili və idarə edilməsi" ixtisasları üzrə təhsil alan tələbələri Fransanın Montpellier Universitetinin "Beynəlxalq menecment və biznes" ixtisası üzrə də diplomunu almaq imkanı əldə edə biləcəklər.

London Universiteti/London İqtisad Məktəbi ilə ötən il imzalanmış ikili diplom proqramı bu il də davam etmişdir. Hal-hazırda proqram üzrə təhsil alan tələbələrin sayı 8 olmuşdur.

MBA proqramı üzrə İsveçrə Biznes və Beynəlxalq Tədqiqatlar Universiteti (UBİS) ilə proqramda 19 nəfər təhsil almışdır.

Magistratura səviyyəsində də ikili diplom proqramını reallaşdırmaq üçün müəyyən işlər görülmüşdür. Belə ki, Türkiyənin Süleyman Dəmirəl Universiteti ilə ikili diplom proqramını əhatə edən razılaşma hazırlanmışdır. Proqram Türkiyənin Ali Təhsil Şurası (YÖK) tərəfindən təsdiqləndikdən sonra fəaliyyətə başlayacaqdır.

Eyni zamanda, dünyanın nüfuzlu ali təhsil müəssisələrindən olan Birləşmiş Krallığın Koventri Universiteti ilə də MBA təhsili üzrə ikili diplom proqramı üçün razılıq əldə olunmuşdur.

2016-cı ildə Azərbaycan ali təhsil sistemində ilk dəfə olaraq UNEC-lə Ziqen (Siegen) Universitetinin birgə layihəsi olan DAAD-ın baş ofisinin müsabiqəsinin qalibi olub. Almaniyanın Siegen Universiteti ilə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) birgə iştirak etdiyi "EE-KEY-AZ Sahibkarlıq təhsili: Azərbaycanda iş yerlərinin yaradılması və məşğulluğun əsas amilləri" (EE-KEY-AZ Entrepreneurship Education: a Key to Job Creation and Employability in Azerbaijan) layihəsi Alman Akademik Mübadilə Xidmətinin (DAAD) Almaniyadakı baş ofisi tərəfindən qəbul edilib.

4 il davam edəcək layihə çərçivəsində aşağıdakıların həyata keçirilməsi nəzərədə tutulur:

• Həm Almaniya, həm də Azərbaycanda professor-müəllimlərin, gənc alimlərin, tələbələrin iştirakı ilə görüş və təlimlərin təşkili;
• UNEC-in gənc alimləri və doktorantları üçün Almaniyada bir ay ərzində tədqiqat imkanı;
• Almaniya və Azərbaycanın müxtəlif şirkətlərində təcrübə keçmək imkanı;
• Təlimlərdə iştirak edən əməkdaşlardan yaradılacaq məzunlar bazası (alumni database);
• Eyni zamanda, hər iki ölkədə yay və qış məktəbləri, müxtəlif seminarlar (biznes planlaşması, innovasiya menecmenti, logistika, e-kommersiya, risklər menecmenti və digər sahələr);
• "Məsləhətçi Maliyyə Klubları"nın yaradılması;
•"Kiçik biznes plan" müsabiqəsinin təşkili.

**NƏTİCƏ**

**UNEC Azərbaycanda insan kapitalının formalaşmasında və inkişafında, ixtisaslı mütəxəssislərin hazırlanmasında və yeni biliklərin yaranmasında, tətbiqində yüksək səviyyədə iştirak edir.**

**Adı keçən dövlət proqramından irəli gələn məsələlərin icrasını təmin etmək və iqtisadi inkişaf perspektivi üzrə strateji yol xəritəsində qeyd olunan mövzuları daha dərindən araşdırmaq məqsədi ilə UNEC bütün struktur bölmələrin elmi fəaliyyət planına daxil edilmişdir.**

**Elmi nəticələrin istehsala tətbiqini stimullaşdırmaq məqsədi ilə Azərbaycanda fəaliyyət göstərən ən iri yerli və xarici şirkət nümayəndələri ilə əməli işlər həyata keçirilir.**

**UNEC kollektivində "elm-təhsil-innovasiya" zəncirini təşkil etmək məqsədi gələcəkdə tədqiqat universiteti statusunu əldə etməkdir. Bununla əlaqədar olaraq, UNEC-də yeni "Qrant" haqqında əsasnamə qəbul edilmişdir.**

**Bundan başqa, UNEC-də elm, təhsil və innovativ fəaliyyəti stimullaşdıran qrant sisteminin fəaliyyətinə keçid təmin olunacaqdır. UNEC-də müasir, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan təhsil infrastrukturu, o cümlədən elektron tədris resursları informasiya mərkəzi yaradılacaqdır. Elm, təhsil və innovasiya, təhsillə bağlı media və internet resurslarının inkişafına yönələn işlər davam etdirələcəkdir.**

**UNEC-də büdcədənkənar vəsaitlər hesabına məqsədli kapital fondunun yaradılması və Elmi tədqiqatları stimullaşdırmaq məqsədi ilə Qrant maliyyələşmə sisteminin tətbiqi nəzərdə tutulur.**

**UNEC-də müəllimlərin elmi fəaliyyətinin stimullaşdırılması üzrə yeni strukturun- Elm Departmenti nəzdində "Elmmetriya" şöbəsinin yaradılması nəzərdə tutulur.**

**Beləliklə, UNEC AR Prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi"ində Ali Təhsil müəssisələri qarşısında duran vəzifələrin icrasında əməli səy göstərəcəkdir.**

*i.e.d., prof. Zahid Fərrux Məmmədov,*
*Azərbaycan Dövlət İqtisad Universitetinin "Elm" şöbəsinin müdiri, "Maliyyə və maliyyə institutları işi" kafedrasının professoru*

KİVDF
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# "...BU İSTİQAMƏT BİZƏ UĞURLAR GƏTİRİR"

"Hər bir yerdə yerli icra orqanlarının rəhbərləri, icra başçıları, vəzifəli şəxslər sahibkarlara köməklik göstərməlidirlər. Onların fəaliyyətinə dəstək verməlidirlər, onların işinə müdaxilə etməməlidirlər, qanunsuz tələblər irəli sürməməlidirlər. Sahibkarlara yalnız köməklik göstərmək lazımdır ki, öz işlərini daha da səmərəli şəkildə qura bilsinlər". Dövlət başçısı İlham Əliyevin bu sözləri ölkəmizdə sahibkarlıq sahəsinə ayrılan diqqətin və dövlət qayğısının bariz nümunəsidir. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin davamlı inkişafı dövlətin iqtisadi siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir və bu sahədə qanunvericiliyin, inzibati prosedurların və dövlət-sahibkar münasibətlərinin təkmilləşdirilməsi istiqamətində son illər dövlət tərəfindən kompleks tədbirlər həyata keçirilmişdir. Hazırda ölkəmizdə sahibkarlıq fəaliyyəti müxtəlif istiqamətlərdə inkişaf edir. Təbii ki, bu da Prezident İlham Əliyevin "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır. Biz bu istiqaməti seçmişik və bu istiqamət bizə uğurlar gətirir" ifadəsində də öz əksini tapmışdır.

Hər hansı bir fəaliyyətlə məşğul olmaq üçün ilk olaraq insanların həyat və sağlamlıqları əsas şərtlərdəndir. Məhz bunları əsas götürən "PAŞA Həyat Sığorta" şirkəti bu sahədə fəaliyyət göstərməklə həm də onları həyatları ilə bağlı yarana biləcək və yaranmış problemlərdən də sığortalayır.

2011-ci ilin fevral ayından fəaliyyətə başlayan "PAŞA Həyat" Azərbaycan sığorta bazarının həyat sığortası üzrə ixtisaslaşmış ən iri şirkətidir. Müştərilərə həyat sığortasının bütün sahələri üzrə xidmətlər göstərən şirkət həyat sığortası bazarına, eləcə də fərdi və korporativ müştərilərə sərfəli şərtlərlə müxtəlif növ həyat sığortası məhsulları təklif edir: "Daimi qayğı" ("fərdi həyat sığortası"), "Yığım investisiya" ("həyatın yaşam tərkibli yığım sığortası"), "Həyata bağlan" ("sağalmaz xəstəliklərdən sığorta") və "Kredit götürən şəxslərin həyat sığortası" və "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta".

"PAŞA Holding" şirkətlər qrupunun həyat sığortası sahəsi üzrə ixtisaslaşmış müstəqil maliyyə təşkilatı olan "PAŞA Həyat" brendi nəinki Azərbaycanda, hətta xarici ölkələrdə belə tanınır. Güclü maliyyə dayanıqlığına malik olan şirkət sığorta əməliyyatlarının operativliyi, yəni sığorta müqavilələrinin hazırlanması, onun dərhal müştəriyə çatdırılması, həmçinin sığorta ödənişlərinin qanunvericiliyə uyğun qaydada və müddətdə ödənilməsi baxımından da seçilir. Bazardakı payının durmadan artması, sərfəli şərtlərlə bazara təqdim olunan həyat sığortası məhsullarının çeşidinin çox olması, eləcə də müştərilərə göstərilən yüksək xidmət və bu xidmət nəticəsində müştəri məmnuniyyətinin qazanılması "PAŞA Həyat"ı fərqləndirən əsas cəhətlərdəndir.

Ümumiyyətlə, sığorta şirkəti seçilərkən ilk olaraq şirkətin brendinə, onun maliyyə durumuna, əsas maliyyə göstəricilərinə, sığorta ödənişlərinin vaxtında ödənilməsi və bu ödənişlərin həcminə diqqət yetirilməlidir. Yalnız bu meyarlar əsasında müştəri ən yaxşı sığorta şirkətini müəyyən edə bilər ki, "PAŞA Həyat" da bu mövcud meyarlara cavab verir.

Müddətsiz lisenziyaya malik olan şirkət biznes göstəricilərinə, həmçinin aktivlərinin səviyyəsinə, investisiya portfelinin və sığorta ehtiyatlarının həcminə görə də Azərbaycanın ümumi sığorta bazarında ən iri şirkətdir.

Şirkətin müştərilərinə gəldikdə isə, burada korporativ müştərilərlə yanaşı, fərdi müştərilərlə də yaxından əməkdaşlıq edilir. Ümumiyyətlə, şirkətin müştəri bazası çox genişdir. Bu da, təbii ki, "PAŞA Həyat" brendinə olan inam və etibardan irəli gəlir.

"PAŞA Həyat"ın əsas üstünlüklərindən biri də şirkətin maliyyə sahəsi ilə yanaşı, ölkənin ictimai və sosial həyatında fəal iştirakıdır. "PAŞA Həyat" fəaliyyəti dövründə müasir tələblərdən irəli gələrək, cəmiyyət üçün mühüm əhəmiyyət daşıyan tarixi-mədəni irsin qorunması, idmanın inkişafı üçün bir çox maraqlı sosial layihələr həyata keçirməkdədir. Bu baxımdan "PAŞA Həyat" "İRS Publishing House" nəşriyyat evinin dəstəyi ilə Azərbaycanın zəngin tarixi-mədəni irsinin, həmçinin müasir inkişafının dünyaya çatdırılması istiqamətində, İçərişəhərə aid "Qədim qalanın yuxuları", "Qobustan-Minilliklərin Kitabı", Azərbaycan miniatür sənətindən bəhs edən "Təbrizin Sehrli Nağılları", Şəkiyə həsr edilmiş "Məftun Edən Şəhər" və Bakının mədəni irsi və müasir nailiyyətlərinə aid "Bakı Simfoniyası" adlı kitabların işıq üzü görməsində, onların oxucu kütləsinə çatdırılmasında yaxından dəstək olub. Məhz bu xidmətlərinə görə, "PAŞA Həyat" "Azərbaycanın mədəni irsinin təbliğində xidmətlərə görə" nominasiyası üzrə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin "Milli İrs" mükafatı ilə təltif edilmişdir.



Şirkət yalnız bu sosial layihələrlə kifayətlənmir. Gənclərin uğurlu gələcəyinə, onların sağlam ruhda böyüməsinə, həmçinin ölkədə sağlam gənc nəslin formalaşdırılması siyasətinə daim dəstək olan şirkət bunun təzahürü olaraq, gənc və yeniyetmə şagirdlərin futbola cəlb edilməsi, futbolsevərlər arasında bu idman növünün təbliği, futbolun kütləviliyinin artırılması və gəncləri sağlam həyata yönləndirmək məqsədi ilə Sumqayıt şəhərində və onun ətrafında yerləşən bütün orta təhsil ocaqlarında "Futbol və Sağlam Həyat" layihəsi, eyni zamanda, Sumqayıt məktəblilərinin yay tətillərini səmərəli və daha maraqlı keçirməsi üçün "Yay Futbol Düşərgəsi" layihəsi, habelə gənclərin sığortaya olan marağını artırmaq məqsədi ilə tələbələr üçün "Sığorta və sığorta mədəniyyəti" adlı pulsuz maarifləndirici təlim layihələri həyata keçirib.

Bunlarla yanaşı, şirkət valideyn himayəsindən məhrum olan uşaqları da daim diqqətdə saxlayır və müxtəlif tədbirlər həyata keçirir.

"PAŞA Həyat"ın ən tanınmış sosial layihələrindən biri də ötən ilin noyabr ayında Bakıda keçirilən "İnsan Resursları Forumu - Bakı 2016" adlı beynəlxalq forum olmuşdur. Şirkətin təşkilatçılığı və təşəbbüsü ilə hər il keçirilən forumda insan resurları sahəsinə aid müxtəlif mövzular müzakirə edilir. Ötən ilki forumun da əsas mövzusu insan resurslarının idarə edilməsi proseslərinin avtomatlaşdırılmasına həsr edilmişdi.

Şirkətin "Təcrübəni Bölüş" adlı maarifləndirici layihəsi də mövcuddur ki, burada məqsəd həyat sığortasının təbliği ilə yanaşı, şirkətdə çalışan uğurlu iş adamlarının tələbələrlə öz karyera təcrübəsini bölüşərək onlara gələcək iş həyatlarında faydalı məsləhətlər verərək, karyera imkanlarını daha düzgün istiqamətə yönəltməkdən ibarətdir.

Qeyd edilən layihələrin bəziləri xüsusilə Azərbaycanda yeni xidmət növlərindən sayılan həyat sığortası haqqında məlumatsız əhalinin daha əhatəli biliyə malik olması baxımından da əhəmiyyətlidir. Gənc sektor olan həyat sığortası bütün insanlar, o cümlədən ailələr üçün çox vacibdir. Çünki qəfil baş verən bədbəxt hadisə nəticəsində ailə başçısını itirən və ya əlil olan şəxslərin həyatında uzunmüddətli maddi çətinliklər yaşanır ki, bu zaman da həyat sığortası ailənin köməyinə çatacaq bir mexanizm rolunu oynayır. Dünya praktikası göstərir ki, istənilən sektorda müəyyən inkişaf səviyyəsinə çatmaq üçün müəyyən dövrə və zamana ehtiyac vardır. Azərbaycanda da həyat sığortasının inkişafının sürətləndirilməsi və tanıdılması işlərinə müvafiq dövlət qurumları ilə yanaşı, "PAŞA Həyat" da öz töhfəsini verməkdədir. Əhalinin həyat sığortası barədə maarifləndirilməsi üçün şirkət tərəfindən 2012-ci ilin iyul ayından başlayaraq ölkənin bütün ali təhsil ocaqlarının tələbələri üçün "Sığorta və sığorta mədəniyyəti" adlı peşəyönümlü sosial layihələr həyata keçirilir. Layihədə əsas məqsəd iqtisadi sahədə təhsil alan tələbələrin sığortaya, o cümlədən həyat sığortası sahəsinə olan maraqlarını, həmçinin bu sahədə bilik, bacarıq və qabiliyyətlərini daha da artırmaqdır. "Sığorta və sığorta mədəniyyəti" layihəsi Azərbaycanda həyat sığortasının təbliği ilə bağlı keyfiyyəti və uzunmüddətliliyi ilə seçilən yeganə layihə kimi tanınır.

"PAŞA Həyat" Azərbaycanın tarixi-mədəni irsinin dünyaya çatdırılması istiqamətində apardığı işlərə görə Mədəniyyət və Turizm Nazirliyinin "Milli İrs" mükafatına, həmçinin Rumıniyanın nüfuzlu "Media-XPRIMM" qurumu tərəfindən əhəmiyyətli nominasiyalar üzrə (2015-ci ildə "Azərbaycanda Lider Həyat Sığortası Şirkəti" və 2016-cı ildə "Ən Yaxşı Müştəri Münasibətləri" 2016 ) ardıcıl olaraq 2 dəfə xüsusi beynəlxalq mükafatlara, eləcə də bu ilin may ayında Böyük Britaniyanın nüfuzlu "Luxury Lifestyle" şirkəti tərəfindən "Customer Relationship Excellence Azerbaijan" nominasiyası üzrə xüsusi mükafata layiq görülüb.

Şirkətin regionlarda da filialları fəaliyyət göstərir. Hazırda "PAŞA Həyat"ın iki regional filialı var ki, bunlar da ölkənin şimal rayonlarını əhatə edən "Şimal filialı" (Sumqayıt şəhəri), qərb və digər rayonları əhaətə edən, inzibati ofisi Gəncə şəhərində yerləşən "Qərb filialı"dır.

Filiallarda baş ofisdə olduğu kimi həyat sığortası üzrə bütün xidmətlər, icbari və könüllü həyat sığortası məhsulları, o cümlədən istehsalatda bədbəxt hadisələrdən icbari sığorta, həyatın müddətli sığortası, yığım tərkibli yaşam sığortası, sağalmaz xəstəliklərdən sığorta və digər könüllü həyat sığortası məhsullarının satışı həyata keçirilir.

**Mətanət Hüseynova**

# AZƏRBAYCANDA TƏTBİQ OLUNAN "ELEKTRON İMZA" AVROPA İTTİFAQI ÖLKƏLƏRİNDƏ TANINACAQ

Bu barədə jurnalistlərə Rəqəmsal Avstriya Platformasının xüsusi nümayəndəsi Kristian Rup deyib.
K.Rup qeyd edib ki, səfərinin məqsədi elektron imza, elektron xidmətlər və kibertəhlükəsizlik sahələri üzrə Avstriyada əldə olunan nailiyyətlərlə yerli mütəxəssisləri tanış etməkdir.



Eyni zamanda, bu texnologiyanın Azərbaycanda tətbiq olunması üsullarının müəyyən olunmasıdır.
Avstriyalı mütəxəssisin sözlərinə görə, növbəti addımın yalnız "Elektron hökumət" deyil, sərhədlər üzərindən qarşılıqlı "elektron imza" sertifikatlarının tanınması və digər məsələlərlə bağlı danışıqların aparılması olacaq. "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində elektron imzaların qarşılıqlı tanınması məsələləri ilə məşğul olacaq işçi qrupu da yaradılacaq.

# ÖTƏN İLDƏ "PAŞA HƏYAT"IN SIĞORTA ÖDƏNİŞLƏRİNİN HƏCMİ KƏSKİN ARTIB

Məcmu aktivlərinin həcminə görə Azərbaycanın ən iri sığorta şirkəti olan "PAŞA Həyat" 2016-cı il üzrə operativ məlumatlar əsasında hazırlanmış hesabatını açıqlayıb.
Şirkətin ictimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, 2016-cı ildə "PAŞA Həyat" tərəfindən 77,679 mln. manat həcmində sığorta haqqı toplanılıb ki, bu da 2015-ci il ilə müqayisədə 23,152 mln. manat və ya 42,5% çox olub.
Hesabat dövründə baş vermiş müxtəlif sığorta hadisələrinə görə "PAŞA Həyat" tərəfindən ödənilən sığorta ödənişlərinin həcmi 29,557 mln. manat və ya 2,8 dəfə artaraq 45,907 mln. manata çatıb.
Cari ilin yanvar ayının 1-nə nizamnamə kapitalının həcmi 40,250 mln. manat təşkil edən "PAŞA Həyat" şirkəti 2011-ci ilin fevral ayından fəaliyyət göstərir. Şirkət müştərilərə sərfəli şərtlərlə müxtəlif həyat sığortası məhsulları, o cümlədən "həyatın müddətli sığortası", "istehsalatda bədbəxt hadisələrdən icbari sığorta", "yığım tərkibli yaşam sığortası", "sağalmaz xəstəliklərdən sığorta" və digər könüllü həyat sığortası məhsulları təklif edir.

# UNEC-DƏ SEMİNAR: MALİYYƏ XİDMƏTLƏRİNİN İNKİŞAFI REAL SEKTORUN DAYANIQLILIĞINI TƏMİN EDƏCƏK

UNEC-də Maliyyə və mühasibat fakültəsinin təşkilatçılığı ilə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol xəritəsi" mövzusunda seminar keçirilib. Seminarda fakültə nəzdində fəaliyyət göstərən kafedraların professor-müəllim heyəti iştirak edib.
Maliyyə və mühasibat fakültəsinin dekanı, dosent Gəray Musayev bildirib ki, respublikada mövcud olan böhranlı vəziyyətə baxmayaraq, ölkə rəhbərliyi tərəfindən aparılan məqsədyönlü iqtisadi siyasət nəticəsində 2016-cı il səmərəli islahatlar ili olub. Maliyyə resurslarının səmərəli realizə olunması hökumətin qarşısında duran vəzifələri uğurla həyata keçirməyə, iqtisadiyyatın inkişafı üçün zəruri maliyyə əsaslarının formalaşmasına imkan yaradıb. Məhz bu amillərdən asılı olaraq, 2016-cı ildə ölkə



iqtisadiyyatında müsbət meyillər yaranıb və davam etməkdədir.
İştirakçılar "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol xəritəsi"nin əhəmiyyətindən danışıblar. Qlobal maliyyə böhranının yeni mərhələyə qədəm qoyduğu bir dövrdə qarşıda duran vəzifələrə toxunaraq, böhrandan çıxış yollarının müəyyənləşməsində və onun reallaşdırılmasında Strateji Yol xəritəsinin konkret istiqamətverici sənəd olduğunu vurğulayıblar.
Sonda G.Musayev bildirib ki, seminarda səsləndirilən fikirlər gələcəkdə tədris prosesində maliyyə və mühasibat ixtisası üzrə təhsil alan tələbələrin hazırlığında əsas istiqamətlərdən biri kimi istifadə olunacaq. Dekan əlavə olaraq qeyd edib ki, Strateji Yol xəritəsinin ayrı-ayrı bölmələrinin öyrənilməsi, seminarda müzakirəsi və təhlili fakültədə davam etdiriləcək. Eyni zamanda, tədris prosesində əsas fəaliyyət istiqaməti kimi tətbiq olunacaq.

# Vergilər Nazirliyində yerli vergi orqanlarının rəhbər vəzifəli şəxsləri üçün seminar keçirilib

***Vergilər Nazirliyində ərazi vergi orqanlarının rəhbərləri və orta menecer heyəti üçün üç günlük seminar keçirilib.***

Tədbirdə çıxış edən vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev bildirib ki, seminarın keçirilməsində məqsəd vergi xidmətində aparılmış struktur dəyişiklikləri nəticəsində yeni yaradılan strukturların fəaliyyətinin təşkili, iş prinsipləri, habelə Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər barədə seminar iştirakçılarına ətraflı məlumat verməkdən ibarətdir. O, qeyd edib ki, son vaxtlar vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi, ölkədəki vergi mühitinin daha da yaxşılaşdırılması, sahibkarlıq subyektlərinin öz vergi öhdəliklərini rahat və asan şəkildə yerinə yetirə bilmələri üçün elektron xidmətlərin tətbiqinin genişləndirilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələrin aradan qaldırılması istiqamətində bir sıra ciddi addımlar atılıb. Vergi Məcəlləsinə çoxlu sayda dəyişikliklər edilib, yeni çağırışlara uyğun olaraq, vergi xidmətinin strukturunda və menecmentində əsaslı islahatlar aparılıb, yeni, müasir tələblərə cavab verən, daha dinamik struktur formalaşdırılıb.

Vergilər Nazirliyinin vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva Vergi Məcəlləsində aparılmış dəyişikliklər barədə ətraflı məlumat verərək bildirib ki, qanunvericiliyə edilmiş son dəyişikliklər, əsasən, sahibkarların vergi yükünün azaldılması, onların hüquqlarının daha etibarlı şəkildə qorunması, ölkəmizdə daha əlverişli biznes mühitinin formalaşdırılması, vergi bazasının genişləndirilməsi hesabına dövlət büdcəsinə vergi daxilolmalarının artırılması ilə bağlıdır. S.Musayeva vergi qanunvericiliyinə edilmiş dəyişikliklərin mahiyyəti, onların praktiki tətbiqi, Məcəllənin ayrı-ayrı maddələri ilə bağlı ətraflı izahlar verərək, yerli vergi orqanlarının qanunvericiliyin tətbiqi prosesini düzgün aparmalarının, son dəyişikliklər barədə vergi ödəyicilərinin məlumatlandırılmasının vacibliyini vurğulayıb.

Vergi risklərinin təhlili və nəzarəti departamentinin baş direktoru Natiq Şirinov Vergilər Nazirliyində aparılan struktur dəyişikləri barədə geniş təqdimatla çıxış edərək bildirib ki, «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» ölkə başçısının 4 avqust 2016-cı il tarixli sərəncamından irəli gələn tələblərin icrası, vergi ödəyicilərinə münasibətdə daha təkmil yanaşmaların formalaşdırılması, eləcə də Vergi Məcəlləsində edilmiş dəyişikliklərin həyata keçirilməsi məqsədilə Vergilər Nazirliyində geniş struktur dəyişiklikləri aparılıb.

Vergi orqanlarının yeni təşkilati strukturunun əvvəlkindən əsaslı şəkildə fərqləndiyini vurğulayan N.Şirinov bildirib ki, əvvəllər vergi daxilolmaları üzrə proqnozların icrası zamanı böyük dövriyyəsi olan vergi ödəyiciləri ilə aparılan işlərə daha çox diqqət yetirilməklə bərabər, dövriyyələrindən asılı olmayaraq bütün vergi ödəyicilərinə (iri, orta və kiçik) eyni inzibati mexanizmlər tətbiq edilirdi ki, bu da kiçik və orta dövriyyəli vergi ödəyicilərinə tətbiq edilən mürəkkəb vergi nəzarəti tədbirlərinin bu ödəyicilərə münasibətdə kifayət qədər səmərəli olmaması, onların fəaliyyətində bir sıra problemlərin ortaya çıxması ilə nəticələnirdi.

Vergi orqanlarının yeni strukturu, ilk növbədə beynəlxalq təcrübədə geniş istifadə olunan «dövriyyə intervalları» prinsipinin vergi inzibatçılığının bütün sahələrində tətbiqini nəzərdə tutur. Təşkilati strukturun vergi ödəyicilərinin dövriyyələrindən və ya mükəlləfiyyətindən asılı olaraq bölgüsü, onlara münasibətdə vergi inzibatçılığını diferensiallaşdırmaqla daha səmərəli, çevik, ədalətli və şəffaf vergi inzibatçılığının formalaşdırılmasına şərait yaradır, iri vergi ödəyiciləri üzrə işlərin daha dərin iqtisadi təhlillərə əsaslanmaqla təşkil olunmasına, orta sahibkarlarla münasibətlərin əsasən partnyorluq müstəvisində qurulmasına, kiçik sahibkarlara münasibətdə isə daha sadə və səmərəli vergi inzibatçılığının formalaşdırılmasına xidmət edir. Fərqli dövriyyəyə malik vergi ödəyicilərinə fərdi yanaşma prinsiplərinin tətbiqi onlara öz fəaliyyətlərini daha səmərəli təşkil etməyə, keçirilən vergi nəzarəti tədbirlərinin sayının azaldılmasına, belə ödəyicilərə münasibətdə vergilərlə əlaqədar bütün tədbirlərin vahid vergi orqanından, faktiki olaraq "bir pəncərə" prinsipi üzrə həyata keçirilməsinə imkan verəcək. Bu məqsədlə ərazi vergi orqanlarında Regional gəlirlər və Kiçik sahibkarlarla iş idarələri, Bakı şəhərində isə Milli Gəlirlər, Lokal Gəlirlər və Kiçik sahibkarlarla iş Departamentləri yaradılıb.

Vergilər nazirinin müşaviri, Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin baş direktoru Ələkbər Məmmədov vergi sistemində aparılan islahatlardan sonra vergi ödəyicilərinə xidmətin strukturlarının rolunun əhəmiyyətli dərəcədə artması barədə danışaraq qeyd edib ki, qarşıdakı dövrdə ödəyici qrupundan asılı olaraq vergi bəyannamələrinin sadələşdirilməsi, vergi ödəyicilərinin qeydiyyatının cəmi 1 gün ərzində həyata keçirilməsi, uçot baza məlumatlarının aktuallığının təmin edilməsi nəzərdə tutulur.

O, seminar iştirakçılarına vergi orqanları ilə vergi ödəyiciləri arasında münasibətlərin partnyorluq müstəvisində inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər, "Yaşıl Dəhliz" prinsipinin üstünlükləri, partnyor vergi ödəyicilərinə göstərilən ənənəvi və innovativ üsullara söykənən fərdi və sürətli ünvanlı xidmətlər, yenidən formalaşdırılmış xidmət strukturları qarşısında duran əsas vəzifələr barədə məlumat verib. Ərazi vergi orqanları ilə iş üzrə departamentin baş direktoru Elçin Bəylərov öz çıxışında vurğulayıb ki, yerli vergi orqanlarında aparılmış əsaslı funksional və struktur dəyişikliklər nəticəsində müasir beynəlxalq təcrübə əsasında yenidən qurulan təşkilati strukturda sahə təhkimçiliyi prinsipi aradan qaldırılıb, audit idarələri və operativ nəzarət şöbələri ləğv edilib. Həyata keçirilən dəyişikliklərin yerli vergi orqanlarının qarşısında mühüm vəzifələr qoyduğunu bildirən E.Bəylərov operativ vergi nəzarəti tədbirlərinin minimuma endiriləcəyini və nəzarətin daha çox risk modulları üzərindən həyata keçiriləcəyini qeyd edib, vergi qanunvericiliyinin tətbiqi prosesində, eləcə də vergi ödəyicilərinin məlumatlandırılması sahəsində görülməsi vacib olan təşkilati işlər barədə danışıb.

Vergi qanunvericiliyinin icrasına nəzarət departamentinin baş direktoru Toğrul Quliyev vergi qanunvericiliyinin icrasına nəzarət strukturlarının iş prinsipləri, Daxili təhlükəsizlik departamentinin baş direktoru Zeynalabdin Məmmədzadə vergi orqanlarının fəaliyyətinə nəzarət strukturlarının vəzifə və funksiyaları, daxili nəzarət sahəsində görüləcək işlər, habelə vergi amnistiyası barədə qanunvericilikdən irəli gələn vəzifələr və görülməli işlər barədə seminar iştirakçılarını məlumatlandırıblar. Seminarda çıxış edən vergilər nazirinin birinci müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov yaxın günlər ərzində vergi orqanlarında görülməsi vacib olan konkret işlər barədə müvafiq tapşırıqlar verib və əmin olduğunu bildirib ki, vergi orqanlarının əməkdaşları vergi sistemində aparılan köklü islahatların mahiyyətinin vergi ödəyicilərinə çatdırılması üçün bilik və bacarıqlarını əsirgəməyəcək, ölkə başçısı cənab İlham Əliyevin vergi orqanları qarşısında qoyduğu vəzifələrin icrasını təmin edəcəklər.

# Vergilər Nazirliyində 20 Yanvar şəhidləri anılıb

Vergilər Nazirliyində 20 Yanvar faciəsinin 27-ci ildönümünə həsr olunmuş anma mərasimi keçirilib. Tədbir açıq elan edildikdən sonra şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Mərasimdə çıxış edən Milli Təhlükəsizlik Akademiyasının kafedra müdiri, hüquq elmləri doktoru, professor Cəlal Qasımov bu qanlı faciənin tarixi kökləri, onu doğuran səbəblər barədə ətraflı məlumat verərək bildirib ki, Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecədə Azərbaycan xalqı sınağa çəkildi. Həm xalqın öz içində yetişdirdiyi qəhrəmanlar üzə çıxdı, həm də ona başçılıq edənlərin kimliyi bəlli oldu. Sovet imperiyasının rəhbərliyi tərəfindən qabaqcadan düşünülüb hazırlanmış bu təcavüzkarlıq aksiyası Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq məqsədi daşıyıb. Azərbaycan xalqına qarşı törədilmiş bu təcavüz aktı mərhələ-mərhələ həyata keçirilmiş, şəhərdə qarətlərlə nəticələnən təxribatlar törədilmişdir. Fövqəladə vəziyyət elan edildikdən sonra da, yanvarın 20-də və sonrakı günlərdə Bakıda əhali arasında ölənlər var idi. Törədilən cinayət nəticəsində 132 nəfər şəxs qətlə yetirilib, 612 nəfər yaralanıb, 841 nəfər qanunsuz həbs olunub, yüzlərlə bina dağıdılıb, dövlətə və vətəndaşlara külli miqdarda ziyan dəyib.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Qanlı Yanvar qırğını həm də rus şovinistlərinin ermənilərlə birgə apardıqları anti-Azərbaycan siyasətinin tərkib hissəsi idi. Lakin imperiya cəlladları qanlı əməlləri ilə Azərbaycan xalqının iradəsini qıra bilmədilər. Qanlı Yanvar milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə qovuşmasına gətirib çıxardı.




Qeyd olunub ki, Qanlı Yanvar hadisələrinə əsl siyasi-hüquqi qiymət yalnız Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin yenidən hakimiyyətə qayıtmasından sonra verilib, faciənin günahkarlarının adları açıqlanıb.

Mərasimdə çıxış edən Vergilər Nazirliyinin əməkdaşları 20 Yanvar faciəsinin səbəbləri, onun xalqımızın tarixində yeri və rolundan danışıblar. Bildirilib ki, «20 Yanvar Şəhidi» fəxri adının təsis edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti 31 mart 1998-ci il tarixdə fərman imzalayıb, 1990-cı il yanvarın 20-də kecmiş SSRİ silahlı quvvələrinin Bakıya və respublikanın bir necə rayonuna hərbi təcavuzu zamanı həlak olmuş 147 nəfərə indiyədək "20 Yanvar şəhidi" fəxri adı verilib. Azərbaycan xalqı 20 yanvar qurbanlarının xatirəsini bu gün də əziz tutur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev şəhid ailələrinin sosial problemlərinin həlli ilə bağlı mütəmadi olaraq konkret tədbirlər həyata keçirir, onlara lazımi diqqət və qayğı göstərir. 20 Yanvar hadisələrində şəhid olanların, itkin duşənlərin ailələrinə və əlil olan şəxslərə hər il birdəfəlik dovlət yardımları edilir. Çıxışlarda xüsusi vurgulanıb ki, 1990-cı ilin Qanlı Yanvar hadisəsi Azərbaycan xalqı üçün təkcə bğyük faciə deyildir. O, ləyaqətini qorumaq ucun hər cur qurban verməyə hazır olan xalqın tarixində şərəfli bir səhifədir. Qeyd olunub ki, xalqımızın milli birliyini gücləndirmiş, Azərbaycan tarixinin faciəvi, eyni zamanda şanlı səhifələrindən biri olan 20 Yanvar faciəsi qurbanlarının xatirəsi daim qəlblərdə yaşayacaq.

# Vergilər Nazirliyi regionlarda çalışan sahibkarlarla görüşlərə başladı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış və 2017-ci ilin yanvar ayının 1-dən qüvvəyə minən "Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" və "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" qanunların şərh edilməsi, yişikliklərin əsas məqsədi sahibkarlığın, xüsusilə də kiçik və orta biznesin inkişafına daha əlverişli şəraitin yaradılması, vergi yükünün azaldılması, sahibkarların hüquqlarının daha etibarlı qorunması, vergi orqanları və sahibkarlıq subyektləri arasında qarşılıqlı etimadın səviyyəsinin yüksəldilməsi, nağdsız əməliyyatların həc-




vergi qanunvericiliyində baş vermiş dəyişikliklərin regionlarda çalışan sahibkarlara və iş adamlarına bilavasitə çatdırılması məqsədilə Vergilər Nazirliyi ölkənin regionlarında vergi ödəyiciləri ilə görüşlərə başlayıb. İlk görüş Quba şəhərində 3 saylı Ərazi Vergilər İdarəsinin əhatə dairəsinə düşən Xaçmaz, Quba, Qusar və Şabran rayonlarının sahibkarları ilə keçirilib.

Görüşdə çıxış edən vergilər nazirinin müavini Sahib Ələkbərov bu il Vergi Məcəlləsinə həm həcm, həm də mahiyyət baxımından olduqca ciddi dəyişikliklərin edildiyini bildirib. Qeyd olunub ki, bu də-

minin artırılması, vergi mühtinin cəlbediciliyinin artırılması yolu ilə iqtisadiyyata investisiya qoyuluşlarının təşviq edilməsi, dürüst və şəffaf uçotun qurulmasıdır.

Nazir müavini vergi tutulan, əməliyyatlarının həcmi 200.000 manatdan artıq olan ticarət və ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslərdən 1 aprel 2017-ci ildən, bütün digər vergi ödəyicilərindən isə 1 yanvar 2018-ci ildən malların, işlərin və xidmətlərin alıcısı olan hüquqi şəxslərə və fərdi sahibkarlara elektron qaimə-faktura təqdim olunması ilə bağlı Məcəlləyə yeni maddə əlavə olunduğunu bildirərək vurğulayıb ki, bu dəyişiklik sahibkarlar arasında aparılan əməliyyatların rəsmiləşməsi prosedurunun sadələşməsinə, operativliyin təmin edilməsinə, inzibatçılıq xərclərinin azaldılmasına, sahibkarların xərclərini təsdiq edən sənədlərə malik olmaqla gələcəkdə vergi orqanları ilə fikir ayrılıqlarının qarşısının alınmasına və şəffaflığın təmininə xidmət edəcəkdir. S.Ələkbərov ölkə başçısının təşəbbüsü ilə qəbul olunmuş "Vergi ödəyicilərinin 2017-ci ilin 1 yanvar tarixinə mövcud olan vergi borclarının tənzimlənməsi haqqında" Qanunun əhəmiyyətinə toxunaraq bildirib ki, bu qanun sahibkarların maliyyə vəziyyətinin sağlamlaşdırılmasına, onların sərəncamında əlavə vəsaitlərin qalmasına, sahibkarlığın inkişafının stimullaşdırılmasına və daha əlverişli biznes mühitinin formalaşdırılmasına xidmət edir. Nazir müavini yaranmış borclar üzrə hesablanmış faizlərin və Vergi Məcəlləsinin 58.7-ci maddəsinə əsasən hesablanmış maliyyə sanksiyalarının tam silinəcəyini, digər maliyyə sanksiyaları üzrə isə müəyyən edilmiş şərtlər daxilində silinmələrin nəzərdə tutulduğunu bildirib, sahibkarları bu qanunun yaratdığı imkanlardan maksimum yararlanmağa çağırıb. Görüşdə çıxış edən Vergilər Nazirliyinin rəhbər vəzifəli şəxsləri Vergi Məcəlləsində edilmiş əlavə və dəyişikliklərin ətraflı izahını verib, bu dəyişikliklərin mahiyyəti və qanunun tətbiqi ilə bağlı məsələlər barədə vergi ödəyicilərini məlumatlandırıblar.

Görüş iştirakçıları çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıqlarını bildiriblər. Sonda tədbirdə iştirak edən vergi ödəyicilərinin çoxsaylı sualları cavablandırılıb.

# Gəmiçilikdə "Tax Free" sistemi tətbiq olunacaq

Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində "Tax Free" sistemi tətbiq olunacaq. Bu, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"na edilən dəyişikliklərdə öz əksini tapıb. Artıq bir neçə aydır ki, ölkəmizdə tətbiqinə başlanılan "Tax Free" sistemindən bundan sonra "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin xətti ilə səfər edən xarici vətəndaşlar da istifadə edəcək. "Tax Free" sistemi vasitəsilə xarici ölkə vətəndaşı, turist ölkədən çıxarkən təqdim edilən məhsul üzrə əlavə dəyər vergisinin (ƏDV) faizi həmin şəxsə qaytarılır. Bunun üçün alınan məhsulun qəbzi olmalıdır və mağazada məhsul alınarkən xüsusi blank doldurulmalıdır. Blankda geri alınacaq məbləğin miqdarı göstərilir. Ölkəni tərk edərkən həmin sənəd gömrük orqanına təqdim edilir və məhsul üçün ödənilən ƏDV geri qaytarılır.

# SOCAR İstiqrazları üzrə ilk faiz ödənişi həyata keçirilib



"SOCAR İstiqrazlarının buraxılması və təkrar bazarda tədavülü SOCAR-ın maliyyə mənbələrini şaxələndirməklə yanaşı, ölkə vətəndaşlarının vəsaitlərinin daha səmərəli istifadəsinə və Azərbaycanın qiymətli kağızlar bazarının inkişafına ciddi dəstək olub". Bu sözləri «SOCAR Capital» şirkətinin Müşahidə Şurasının sədri, SOCAR-ın vitse-prezidenti Süleyman Qasımov SOCAR İstiqrazları üzrə ilk faiz ödənişinin həyata keçirilməsi münasibətilə keçirilən mətbuat konfransında deyib.

Süleyman Qasımov bildirib ki, «SOCAR İstiqrazlarının buraxılması ilə əhalinin yığımlarının iqtisadi proseslərə cəlb olunması və istifadəsiz vəsaitlərin öz sahiblərinə fayda gətirməsi üçün əlverişli imkan yaradılıb. Nəticədə, istiqrazlara yatırılan vəsaitlər bu gün öz sahiblərinə ilk gəlirlərini gətirib.

Tədbirdə qeyd olunub ki, yanvarın 17-də həyata keçirilən faiz ödənişi çərçivəsində SOCAR İstiqrazlarının sahiblərinə ümumilikdə 1 milyon 250 min ABŞ dolları həcmində faiz ödənilib. Bu vəsait istiqraz sahiblərinin bank hesablarına artıq köçürülüb və vətəndaşlar bu pulları istədikləri kimi istifadə edə bilərlər. SOCAR İstiqrazlarının buraxılmasından əldə edilən vəsaitlər şirkətin maliyyələşmə imkanlarının şaxələndirilməsi, xaricə faiz ödənişlərinin azaldılması və faizlərin xaricə deyil, ölkə daxilinə, ölkə vətəndaşlarına ödənilməsi üçün istifadə edilib.

Tədbirdə çıxış edən SOCAR-ın qiymətli kağızlarının emissiyası üzrə baş məsləhətçisi və "SOCAR Capital" şirkətinin Məsləhət Şurasının üzvü Əli Ağaoğlu bildirib ki, hazırda SOCAR İstiqrazları üzrə investorlara təklif olunan şərtlər nəinki Azərbaycanda, hətta bütün regionda ən əlverişli şərtlər sayıla bilər. «SOCAR bəyan edib ki, istiqraz sahiblərindən bu kağızları istənilən vaxt nominal qiymətə, yəni 1000 dollara almağa hazırdır. Bu şərtlər investorlar üçün 100%-lik zəmanət deməkdir və indiyədək heç bir istiqraz buraxılışında belə bir zəmanət tətbiq olunmayıb».

Qeyd olunub ki, təkrar bazarda istiqrazları Azərbaycan vətəndaşları ilə yanaşı, xarici vətənaşlar da alırlar. Bu sahədə Gürcüstan, Türkiyə və Rusiya vətəndaşları daha fəaldırlar. Ölkə vətəndaşları, eləcə də yerli və xarici fiziki, hüquqi şəxslər SOCAR İstiqazlarını təkrar bazardan əldə edə bilərlər. Bunun üçün onlar ASAN Xidmətin 1 və 5 saylı Xidmət Mərkəzlərinə, eləcə də *19 99 qaynar xəttə müraciət etməlidirlər.

Xatırladaq ki, Dövlət Neft Şirkətinın (SOCAR) daxili bazar üçün nəzərdə tutulmuş SOCAR İstiqrazları 2016-cı ilin sentyabr ayında buraxılıb.

İstiqrazlar 100 milyon dollar həcmində, 5 illik müddətə və illik 5% gəlirliliklə emissiya edilib. İlkin olaraq abunə yazılışı yolu ilə satılan istiqrazlara investorlar tərəfindən tələbat 2 dəfədən artıq olub.

Oktyabr ayının 17-dən isə SOCAR İstiqrazlarının təkrar bazarda dövriyyəsinə başlanılıb. Faiz ödənişləri ildə 4 dəfə ödəniləcək. İlk faiz ödənişi 17 yanvar 2017-ci ildə həyata keçirilib.

**Mətanət**

# Bakcell "Bax nələr mümkündür" yeni şüarını ictimaiyyətə təqdim etdi

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti böyük məmnuniyyətlə "Bax nələr mümkündür" şüarı ilə yeni mövqeləndirmə strategiyasına keçdiyini elan edir.

"Bakcell təsis olunduğu gündən özünü qiymət və keyfiyyət nisbətinə önəm verən bir operator kimi təqdim edib. Müştərilərimizin ehtiyac və gözləntilərinin daim diqqət mərkəzində saxlanması bizi "Bakcell"in özünü ictimaiyyətə təqdimatını dəyişərək, onu daha fərqli və unikal etməyə ilhamlandırır. Zaman sürətlə dəyişir və dövrümüzün bütün çağırışlarına cavab vermək üçün biz zamanın nəbzini tutmalıyıq. Bu gün telekommunikasiya sahəsi daha çox mobil internetə, smartfonlara, tətbiqetmələrə, sürətə və digər texnoloji innovasiyalara yönəlib. Bu sahədə tərəqqi çox sürətlə gedir və texnoloji şirkət olaraq, biz müştərilərimizin bazarda mövcud olan ən yaxşı və təhlükəsiz həllərdən faydalanmalarına kömək edirik. Bakcell təkcə texnologiya, təkliflər, danışıq dəqiqələri və meqabaytlar deyil, həmçinin insanların həyatında etdiyi müsbət dəyişikliklərdir. Kommunikasiya dövrü düşündüklərimizdən daha artıqdır: o, bir çox müxtəlif imkanlar yaradır və bizim məqsədimiz insanların bu cür imkanlardan istifadə edə bilməsini asanlaşdırmaqdır. Beləliklə, "Bakcell"in yeni mövqeləndirmə strategiyasının məqsədi insanların həyatına daha çox fayda gətirmək, habelə kommunikasiya dövrünün təklif etdiyi müxtəlif imkanların müştərilərimiz tərəfindən mənimsənilməsini təmin etməkdir. Yeni **"Bax nələr mümkündür"** fəlsəfəsini rəhbər tutaraq, Bakcell şirkəti öz təkliflərini, innovasiyaları, xidmət və məhsullarını elə bir tərzdə təqdim etməyə çalışacaqdır ki, onlar insanların gündəlik həyatını, işini və asudə vaxtlarını ən müasir texnoloji yeniliklərlə əhatə etsin. Bu yeni mövqeləndirmədə əsas məqsəd telekommunikasiya sahəsində "Bakcell"i digər rəqiblərdən aydın şəkildə fərqləndirmək, müştəriyönümlü olmaq və onların gözləntilərinə cavab verməkdir", - deyə Bakcell şirkətinin baş icraçı direktoru cənab Nikolai Bekers bildirib. Telekommunikasiya sahəsinin getdikcə daha çox mobil internetə, smartfonlara, tətbiqetmələrə, sürətə və digər texnoloji innovasiyalara yönəldiyini nəzərə alaraq, Bakcell sadəcə çalışacaqdır ki, onun müştəriləri öz telefonları, bağlantıları, internet və sürətləri ilə edə biləcəkləri inanılmaz şeyləri görə bilsinlər.

# 1000-dən çox insan pulsuz göz müayinəsindən yararlanıb



Azercell Telekom-un dəstəyi ilə fəaliyyət göstərən "Mobil Göz Klinikası" ötən il ərzində müxtəlif göz xəstəliklərindən əziyyət çəkən insanlara xidmət göstərib, yüzlərlə xəstəni müayinə edib. Ağcabədidə yerləşən Gənclər üçün təhsil mərkəzində 47 nəfər, Sabunçu rayonu, Yeni Ramana qəsəbəsindəki 1 saylı sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzində isə 29 nəfər müayinə olunub. Klinikanın həkimləri Salyanda və Siyəzəndə yerləşən internat məktəbində ehtiyacı olan 100 nəfərə yardım etdikdən sonra Əmircan, Zığ və Hövsan qəsəbəsində 120 nəfər olmaqla valideyn himayəsindən məhrum olan uşaqlara, ahıllara və aztəminatlı ailələrə xidmət göstəriblər. Eyni zamanda, Salyandakı Əlillər Cəmiyyətində 35 nəfər, Buzovna qəsəbəsindəki Qocalar evində isə 24 nəfər müayinə olunub. Müayinələrin nəticələrinə əsasən, ehtiyacı olanlara eynək reseptləri yazılıb, bəzilərinə isə müalicələr təyin edilib. Ümumilikdə, 2016-cı ildə 1000-dən çox ehtiyacı olan insana "Mobil Göz Klinikası" layihəsi çərçivəsində yardım edilib.

# "PAŞA Həyat" Bakı Dövlət Universitetinin tələbələrini mükafatlandırıb

"PAŞA Həyat" şirkəti Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin tələbələri üçün "Azərbaycanda həyat sığortası" mövzusunda elan etdiyi yazı müsabiqəsinin nəticələrini açıqlayıb.

Şirkətin İctimaiyyətlə əlaqələr xidmətindən verilən məlumata görə, müsabiqənin yekunlarına həsr olunmuş tədbiri giriş sözü ilə açan "PAŞA Həyat" sığorta şirkətinin əməkdaşı Elnur Hüseynquluyev müsabiqənin nəticələri ilə bağlı geniş məlumat verib. "Müsabiqəyə ötən ilin noyabr ayının 23-dən start verilib və yekun olaraq müsabiqəyə tələbələr tərəfindən 23 yazı təqdim olunub. Həyat sığortasının spesifik sahə olmasına baxmayaraq, tələbələrin təqdim etdiyi məqalələr sırasında həyat sığortasının mahiyyətini, həyat sığortasının vacibliyini, eləcə də həyat sığortasının əsas üstünlüklərini özündə əks etdirən maraqlı yazılar olub. Müsabiqədə yer tutumuş məqalələr "PAŞA Həyat" və BDU-nun əməkdaşlarından ibarət münsiflər heyətinin üzvlərinin apardıqları qiymətləndirmə nəticəsində müəyyənləşib. "Artıq biz bu gün həmin qaliblərin adlarını elan edərək onları mükafatladıracağıq. Ümid edirəm ki, "PAŞA Həyat" şirkətinin BDU ilə əməkdaşlığı bununla bitməyəcək, yeni layihələr üzərində işləyərək gələcəkdə BDU ilə əməkdaşlığımızı daha da gücləndirəcəyik", - deyə E.Hüseynquluyev qeyd edib.

Tədbirdə çıxış edən BDU-nun jurnalistika fakültəsinin dekanı Cahangir Məmmədli "PAŞA Həyat" şirkəti tərəfindən həyata keçirilən yazı müsabiqəsi layihəsini yüksək qiymətləndirərək, gələcəkdə BDU ilə bu cür layihələrin davamlı olmasına əminliyini bildirib.

Daha sonra müsabiqədə yer tutmuş tələbələrin mükafatladırılmasına başlanılıb. Münsiflər heyəti üzvlərinin yekun qərarı ilə 70 balla I yerin qalibi Rizvan Fikrətoğlu, 68 balla II yerin qalibi Ulucay Akif və 64 balla III yerin qalibi Həşim Səhrablı elan olunub. "PAŞA Həyat" tərəfindən I yerin qalibinə 500 AZN, II yerin qalibinə 300 AZN və III yerin qalibinə isə 200 AZN pul mükafatı və hədiyyələr təqdim olunub.

## Gənc tədqiqatçının tribunası

# Qlobal qeyri-stabillik şəraitində Azərbaycanın enerji strategiyası

Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra enerji dəhlizlərinin, habelə enerji təchizatı marşrutlarının formalaşdırılması xüsusi əhəmiyyət kəsb etməyə başladı. Müstəqilliyin ilk illərində bu sahədə hər hansı bir uğura nail olmamağımıza baxmayaraq, sonradan Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu sahədə inqilabi yeniliklər həyata keçirildi. Heydər Əliyevin neft siyasəti bir neçə mərhələdən ibarət idi. Birinci mərhələdə əsas məqsəd müasir texnologiyaların və investisiyanın ölkəyə cəlbi idi. İkinci mərhələyə isə gələcəkdə Azərbaycan tərəfindən idarə ediləcək, eyni zamanda, onun mülkiyyəti sayıla biləcək enerji nəqli marşrutlarının və boru kəmərlərinin tikintisi daxil idi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi səbəbindən Azərbaycan ərazisinin 20%-nin işğalı bütün boru kəmərlərinin Rusiya, Türkiyə və Gürcüstan ərazilərindən çəkilməsini zəruri etdi. Azərbaycanın neft kəmərləri: Azərbaycan nefti Qərb istiqamətində 3 əsas neft kəməri ilə nəql olunur: Bakı-Tbilisi-Ceyhan (BTC), Bakı-Supsa və Bakı-Novorossiysk.

BTC neft kəməri vasitəsiylə Azəri-Çıraq-Günəşli yatağından çıxan neftin Aralıq dənizinin sahilində yerləşən Ceyhan limanına nəqli həyata keçirilir. Kəmərin fəaliyyətə başlamasına 2006-cı ilin 13 iyul tarixində, 3 ölkənin (Azərbaycan, Türkiyə, Gürcüstan) dövlət başçılarının iştirakı ilə start verilmişdir. Ümumi uzunluğu 1773 km olan boru kəmərinin 449 km-lik hissəsi Azərbaycan, 235 km-lik hissəsi Gürcüstan, 1059 km-lik hissəsi isə Türkiyə ərazisindən keçir.

2006-cı ilin iyul ayında ilk neftin nəqli baş vermişdir. O dövrdən etibarən il ərzində kəmərdən keçən neftin həcmi 1,2 mln. barrel və ya 50 mln. ton neft təşkil edir.

Xüsusilə qeyd etmək lazımdır ki, Xəzər dənizinin Azərbaycana aid hissəsindən çıxan neftin həcmi kəmərin rentabelli olmasına kifayət etmirdi. Belə olan halda, əlavə neft təchizi həyata keçirə biləcək ölkə (resurs) axtarışına başlanıldı. İştirakçı ölkələrin yekdil qərarına əsasən, Qazaxıstan seçildi. Məlumat üçün qeyd etmək lazımdır ki, Qazaxıstan hal-hazırda "Transneft", "Xəzər dənizi kəmərləri konsorsiumu" və Rusiyanın Novorossiysk limanı vasitəsilə Qərbə neft nəqlini həyata keçirir.

Beləliklə, 16 iyun 2006-cı il tarixində Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin sərəncamı ilə Qazaxıstan BTC-yə qoşuldu. Müqavilə Qazaxıstan neftinin Xəzər dənizindən keçməklə Aktau limanından Bakıya və oradan da BTC neft kəməri vasitəsilə nəqlini nəzərdə tutur (2014-cü ilə qədər nəql olunan neftin həcmi 5 mln. tona çatmışdır).

Bakı-Supsa: Bakı-Supsa neft kəməri 17 aprel 1999-cu il tarixində istifadəyə verilmişdir. Kəmər Azəri-Çıraq-Günəşli yataqlarının birgə işlənməsini nəzərdə tutur. Ümumi uzunluğu 837 km təşkil edir. Borunun diametri 530 mm-dir. Kəmər öz başlanğıcını Sanqaçal teminalından götürür və Gürcüstanın Supsa terminalına kimi uzanır. Neft kəmərinin operatoru qismində BP (British Petrolium) şirkəti çıxış edir.

Boru kəmərinin gündəlik gücü 145 min barrel, maksimal gündəlik gücü isə 600 min barrel təşkil edir.

Bakı-Novorossiysk: Bakı-Novorossiysk neft kəməri Azərbaycan neftinin Rusiyanın Novorossiysk şəhərinə nəqlini nəzərdə tutan neft kəməridir. Kəmər Rusiyanın "Transneft" şirkəti tərəfindən idarə olunur.

Boru kəməri vasitəsilə nəql olunan neft Novorossiysk limanında "Urals" adı altında satılır. 1997-ci ilin yanvar ayında Rusiya və Azərbaycan arasında bağlanmış razılaşmaya əsasən, Azərbaycan tərəfi il ərzində 2,5-2,7 mln. ton neftin nəqlini öhdəliyinə götürmüşdür.

Trans-Anatolia Gas Pipeline (TANAP) adını almış qaz kəməri Xəzər dənizindən Bolqarıstanadək, ümumilikdə, 3500 km-lik yol qət edəcəkdir. Bunun 2000 km-lik hissəsi Türkiyə-Gürcüstan sərhədindən Türkiyə-Bolqarıstan sərhədinədək keçəcəkdir. Layihənin ümumi dəyəri 5-6 mlrd. ABŞ dolları həcmində qiymətləndirilir.

Artıq qeyd edildiyi kimi, layihənin birinci mərhələsində illik 16 mlrd. kub metr qaz nəqli nəzərdə tutulur ki, bunun da 6 mlrd. kub metri Türkiyənin daxili bazarını təmin edəcək, 10 mlrd. kub metri isə Cənubi Avropa ölkələrinə göndəriləcəkdir. Layihənin ikinci mərhələsinin icrasına 2023-cü ildə başlanılacaq və ildə 24 mlrd. kub metr qaz nəql olunacaqdır. 2026-cı ildə başlanılacaq üçüncü mərhələdə artıq 31 mlrd. kub metr qaz nəqli nəzərdə tutulur.

Layihə iştirakçılarının pay bölgüləri aşağıdakı kimidir: 58% SOCAR (Azərbaycan), 30% BOTAŞ (Türkiyə), 12% BP.

17 mart 2015-ci il tarixində Türkiyənin Qars şəhərində TANAP layihəsinin rəsmi təməlqoyma mərasimi keçirilmişdir.

Trans Adriatik Qaz kəməri (TAP): Trans Adriatik (TAP) kəməri Azərbaycan qazının Xəzər dənizindən Cənubi Avropaya nəqlini nəzərdə tutan qaz kəmərdir. TAP-ın ümumi uzunluğu təxminən 870 kilometr olacaq. Bunun



550 km-i Yunanıstanda, 210 km-i Albaniyada, 105 km-i Adriatik dənizinin altında, qalan bir neçə km-i isə İtaliya ərazisində yerləşəcək. Kəmərin illik sabit gücü 10 mlrd. kub metr, maksimal gücü isə 20 mlrd. kub metr təşkil edəcək. Layihənin ümumi dəyəri 4-5 mlrd. avro təşkil edir.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin qeyd etdiyi kimi, artıq Azərbaycan Avropa üçün yeni qaz və enerji təchizatçısı rolunda çıxış edir. Qısamüddətli və ortamüddətli dövrlər üçün bu layihələr daha da perspektivlidir. Cənub qaz dəhlizinin inşasından sonra Mərkəzi Asiyadan enerji resurslarının nəqli üçün hazır infrastruktur olacaqdır.

***(Layihələrin geosiyasi əhəmiyyəti haqqında gələn sayımızda)***

**Salayev Azər Çingiz oğlu,**
**Qərb Universitetinin doktorantı**

# В МИРЕ

## РОССИЯ В РЕЙТИНГЕ ИННОВАЦИОННЫХ ЭКОНОМИК




Россия оказалась на 26-м месте в рейтинге стран с наиболее инновационной экономикой Bloomberg Innovation Index, опустившись за год на 14 пунктов. Это самое существенное снижение среди стран, включенных в рейтинг.
Первое место в списке заняла Южная Корея, за ней следует Швеция, на третьей позиции - Германия. Как поясняют составители рейтинга, в расчет берутся такие факторы, как траты на научные исследования и разработки, а также количество высокотехнологичных компаний в стране.
В десятку наиболее инновационных экономик, по версии Bloomberg, также вошли Швейцария, Финляндия, Сингапур, Япония, Дания, США и Израиль.
Россия, как отмечается в докладе, потеряла больше всего позиций в рейтинге, в который вошли 50 стран. "Под влиянием санкций и последствий двухлетнего падения цен на энергоносители прошлогодние стабильные показатели России в производстве и производительности труда были утрачены в этом году", - отмечают составители рейтинга.
Согласно прогнозу Всемирного банка, представленному на прошлой неделе, в 2017-2018 годах российская экономика вновь начнет расти, но темпы роста будут очень низкими.
В банке полагают, что правительству придется выбирать между бюджетной стабильностью и выполнением социального контракта.

## МАКСИМАЛЬНЫЙ ЭКОНОМИЧЕСКИЙ ЭФФЕКТ ОТ ПОВЫШЕНИЯ ПЕНСИОННОГО ВОЗРАСТА БУДЕТ ЧЕРЕЗ 10–16 ЛЕТ



Россия сможет накопить существенный экономический ресурс после повышения пенсионного возраста через 10–16 лет, считает бывший министр финансов, руководитель Центра стратегических разработок Алексей Кудрин. «При переходе на новый пенсионный возраст за первый год только небольшая группа работающих продолжат свою работу и не выйдут на пенсию, а задержатся на полгода. Затем появится новая группа, и так процесс растянется на 10–16 лет. Эффект будет накапливаться, сумма, остающаяся на пенсионеров, каждый год будет расти. Первые годы это будет небольшая сумма, а к концу процесса станет очень солидной», – сказал Кудрин. По его словам, повышать пенсионный возраст нужно уже с 2019–2020 гг., так как вопрос назрел давно: «Начать нужно было давно, и сейчас уже срочно нужно начинать. Мы считаем, что необходимо начинать с 2019 или с 2020 г.». Кудрин добавил, что повышение пенсионного возраста не коснется уже вышедших на пенсию россиян, а затронет только тех, кто собирается на пенсию в будущем.

## ПОДГОТОВЛЕНА ДОРОЖНАЯ КАРТА ПО НАУЧНОМУ СОТРУДНИЧЕСТВУ АЗЕРБАЙДЖАНА И БЕЛАРУСИ

Государственный комитет по науке и технологиям Беларуси подготовила дорожную карту по сотрудничеству Национальной академией наук Азербайджана. Рабочий вариант дорожной карты, в которой отражены ключевые направления сотрудничества сторон на ближайшие годы будет представлена на согласование с НАНА. В дорожной карте также упомянут вопрос использования мобильных роботов в деятельности различных госведомств страны. Вопрос сотрудничества сторон в этой области может быть решен на уровне



руководства НАНА. Разработанные учеными Государственного университета информатики и радиоэлектроники и Объединенного института машиностроения Национальной академии наук Беларуси мобильные роботы могут быть использованы в сельском хозяйстве, для ликвидации последствий чрезвычайных ситуаций и т, д. Вопросы сотрудничества в этой области, а также в рамках проекта оптимального использования земельных ресурсов были рассмотрены на очередном заседании научного сообщества Азербайджана и Беларуси в рамках госпрограммы по научно-техническому сотрудничеству сторон, которая прошла в октябре 2016 года в Баку.

## МИРОВЫЕ ЦЕНЫ НА ПРОДУКТЫ ПЕРЕСТАЛИ ПАДАТЬ



Мировые цены на продовольствие в прошлом году выросли на 12%, переломив пятилетний падающий тренд. По итогам 2016 г. мировые продовольственные цены выросли на 12%, переломив пятилетний падающий тренд. Среди лидеров роста - молочная продукция (28,8%), растительные масла (29,3%) и сахар (26,3%). В декабре 2016 г., как и в ноябре, мировые цены на продукты питания снизились на 0,1% по сравнению с предыдущим месяцем. При этом годовой рост цен на продовольствие в мире растет - с 10,8% до 12% на фоне низкой базы прошлого года.

## ОАО «АтаБанк» приглашает своих клиентов на фестиваль шоппинга в Дубаи




ОАО «АтаБанк» приглашает своих клиентов на фестиваль шопинга в Дубаи. В рамках кампании владельцы карт VISA от АтаБанк смогут получить специальные предложения и скидки во многих магазинах, ресторанах и отелях. Акция будет продолжаться до 28 января 2017 года.
Специально для удобства своих клиентов "АтаБанк" выпустил программу для мобильных телефонов Visa "Explore". С ней клиенты «АтаБанк»а смогут насладиться шопингом и развлечениями в полной мере. Благодаря Visa "Explore" информацию о скидках и особых предложениях не надо искать, она будет доступна в программе.
Следует отметить, что "АтаБанк" является членом Международной ассоциации платежных систем VISA International с 2004-го года. Функционирующий с 1993-го года ОАО «АтаБанк» является одним из самых больших финансовых структур Азербайджана. Сегодня ОАО «АтаБанк» является высокотехнологичным универсальным банком. Банк предоставляет полный спектр услуг корпоративным и частным клиентам.

## SOCAR ОГЛАСИЛА ОБЪЕМЫ ДОБЫЧИ НА КРУПНЕЙШЕМ ГАЗОВОМ МЕСТОРОЖДЕНИИ



С крупнейшего азербайджанского газового месторождения "Шах Дениз" с начала эксплуатации в 2006 году добыто 78,4 миллиарда кубометров газа и 19,6 миллиона тонн конденсата, С восьми действующих скважин месторождения ежесуточно в среднем добывается 29,5 миллиона кубометров газа и 6,5 тысячи тонн конденсата.
Азербайджан до сегодняшнего дня экспортировал по Южнокавказскому трубопроводу в Грузию 5,9 миллиарда кубометров, в Турцию - 43,8 миллиарда кубометров газа. Ежедневно в рамках первой стадии разработки азербайджанского газоконденсатного месторождения "Шах Дениз" в Грузию поставляется четыре миллиона кубометров, в Турцию - 18,5 миллиона кубометров газа, Контракт на разработку морского месторождения "Шах Дениз" с запасами газа в 1,2 триллиона кубометров был подписан в 1996 году.
Долевое распределение среди участников соглашения: BP - оператор (28,8 процента), AzSD (10 процентов), SGC Upstream (6,7 процента), Petronas (15,5 процента), Lukoil (10 процентов), NICO (10 процентов) и TPAO (19 процентов).
В декабре 2013 года в Баку было принято окончательное инвестиционное решение по "Шах Дениз-2", которое предусматривает добычу дополнительных 16 миллиардов кубометров газа в год.

## НАБЛЮДАЕТСЯ ПОЛОЖИТЕЛЬНАЯ ДИНАМИКА УДОВЛЕТВОРЕННОСТИ КЛИЕНТОВ AZERCELL

В 2016 году Azercell Telecom, которая постоянно заботится о положительном опыте своих абонентов и старается предоставлять им высококачественные услуги, наблюдает повышение уровень удовлетворённости клиентов. По результатам опроса, проведённого между абонентами для оценки уровня работы агентов по обслуживанию абонентов, деятельность Абонентского Центра Azercell получила высокую оценку. Так, в 2015 году уровень удовлетворённости клиентским сервисом составлял 79%, а в 2016 году данный показатель вырос до 83%.
Также Компания добилась высокого результата по Индексу Лояльности Клиентов NPS (Net Promoter Score), согласно которому Azercell сохранила за собой лидерские позиции и в 2016 году на местном телеком рынке. Как известно, в 2014 году впервые в Азербайджане компания Azercell внедрила инновационную систему, позволяющую оценивать показатель, известный в мире как Индекс Лояльности Клиентов - NPS (Net Promoter Score). Данный индекс определяет приверженность потребителя товару или компании (индекс готовности рекомендовать). С началом претворения в жизнь этой уникальной возможности, Azercell ещё раз подтвердила своё лидерство в сфере обслуживания клиентов, что всегда являлось примерным показателем успешного опыта в стране. Внедрение этой инновационной модели оценки приверженности пользователей позволило Azercell ещё лучше узнать потребности своих абонентов и тем самым направить последующую деятельность в соответствии с их пожеланиями. С целью сохранения и увеличения уровня удовлетворённости клиентов, в 2016 году Компания продолжила совершенствовать техническую базу и повышать квалификацию своих сотрудников.
Azercell всегда отличалась своими инновационными подходами в сфере клиентских услуг: в 1998 году Azercell открыла первый телефонный центр в стране, функционирующий в режиме 24/7, а в 2009 создала первый Региональный телефонный центр в г. Гянджа. Оказывая услуги своим абонентам не только лицом к лицу, но и виртуально, Компания постоянно повышает уровень качества данных услуг. Azercell была неоднократно удостоена различных наград за успешную деятельность по обеспечению удовлетворённости клиентов. Azercell также совершает поездки к абонентам, которые по тем или иным причинам не могут посетить Центры Клиентских Услуг или Экспресс Офисы. Посредством визитов в различные города и районы Азербайджана, Мобильная абонентская служба оперативно и удобно реагирует на запросы и пожелания абонентов и предоставляет абонентам весь спектр услуг своих Центров или Экспресс Офисов Компании. Сегодня Azercell с радостью оказывает услуги посредством самой большой сети обслуживания клиентов которая состоит из 63 пунктов абонентского обслуживания и Экспресс-офисов, а также самой большой сети точек продаж из 393 пунктов. Эти офисы и центры готовы оказывать высококачественные услуги абонентам на всей территории нашей страны.

## EximBank выделил €500 млн для карбамидного завода SOCAR в Сумгайыте

Экспортно-импортный банк Южной Кореи предоставил 500 миллионов евро на проект строительства карбамидного завода азербайджанской госкомпании SOCAR в Сумгайыте. "Финансовая поддержка способствует развитию экономического сотрудничества между двумя странами и в то же время закладывает основу для реализации новых крупномасштабных проектов в Азербайджане", - цитируют сообщение банка корейские СМИ. Стоимость проекта строительства карбамидного завода в Сумгайыте составляет около 700-750 миллионов евро. Ожидается, что карбамидный завод SOCAR начнет выпуск продукции в первом квартале 2018 года. Генеральным подрядчиком строительства завода выступает корейская Samsung Engineering, лицензиарами - голландская Stamicarbon и датская Haldor Topsoe, а консультантом по управлению проектом - финская Neste Jacobs Oy.

# "Public relations" tədbirləri



*(əvvəli ötən sayımızda)*

Almaniyada 1893-cü ildə Krupna firması öz tərkibində mətbuat üçün şöbə yaratdı. Maqdeburqda artıq 1906-cı ildə şəhər mətbuat agentliyi mövcud idi. "Public relations" anlayışından Almaniyada yalnız 1938-ci ildə, Karl Hundhauzen tərəfindən istifadə edilməyə başlandı. XX əsrin 50-ci illərində baş verən "alman iqtisadi möcüzəsi" PR-ı sahibkarlar üçün həm zəruri, həm də maraqlı etdi. O zaman "public relations" marketinq fəaliyyətinin alətlərindən biri kimi nəzərdən keçirilməyə başlandı.

"Public relations" müəssisələri rəhbərliyin fikir və baxışlarının ictimaiyyətin fikri ilə inteqrasiyası ilə məşğul olur. Şərh və inteqrasiya aləti kimi "public relations" haqqında bu təsəvvür Almaniyada "Public relations"in ilk qaranquşları olan Karl Hundhauzen və Albert Oekl tərəfindən mənimsənildi.

A.Oekla görə, müasir sənaye cəmiyyətində sabit dəyişikliklər siyasi, iqtisadi və sosial planda iri təşkilatlara yüksək tələblər irəli sürür. Ayrı-ayrı şəxslərin daim dəyişən şəraitə meyil etməsi çətin görünür. A.Oekl "public relations" vəzifəsini ayrı-ayrı subyektlərin cəmiyyətə meyil etməsinə kömək etməkdə, doğru informasiya almaqda və xüsusi rəyin formalaşmasında görür. Bu formada "public relations"ın vəzifəsinin müəyyən edilməsi jurnalistin vəzifəsinin təsvir edilməsindən başqa bir sey deyil. Hal-hazırda A.Oeklin PR-a münasibəti düzgün qəbul edilməsə də, indiyədək onun "public relations"ın ictimai funksiyaları haqqında fikirləri aktual olaraq qalır.

A.Bernayz "public relations"ı hökmran fikirlərin əksinə olaraq plüralizm ideyalarına əsaslanaraq yeni ideya yaratmaq və bu yeni ideyalara generasiya etmək, yəni əmələ gəlmək imkanı kimi təsəvvür edir. A.Dekl öz nəzəriyyəsinin mərkəzinə "public relations"ın xeyrinə konsensusa nail olmanı və əksəriyyət tərəfindən istifadə edilən rəyin formalaşmasını qoyur. 1930-cu illərin əvvəllərində ABŞ-da "public relations" ölkənin iri şirkətlərində geniş yayılan menecmentin müstəqil funksiyası kimi formalaşmışdır.

Hazırda ABŞ-ın 600-ə yaxın şirkəti "public relations" bölməsinə malikdir. Müasir dövrdə ABŞ-da "public relations" agentliklərinin sayı 5200-dən çoxdur, "Public relations" sahəsində isə kommunikasiyalar üzrə 10000-ə yaxın mütəxəssis çalışır. Bu fəaliyyət növündə 300 minə yaxın reklamçı, 200 minə yaxın PR işçiləri, 150 minə yaxın jurnalist xidmət göstərir. 150-yə yaxın Amerika universitetində və kolleclərində PR üzrə tələbələr təhsil alır. 1948-ci ildə ABŞ-da "public relations" cəmiyyəti yaradılmışdır.

1948-ci ildə Böyük Britaniyada İctimai Rəy İnstitutu (İnstitutu of Public Relations) açılmışdır. Hazırda institutda 3100-dən artıq insan çalışır. 1955-ci ildə Londonda "Beynəlxalq public relations assosiasiyası" – İPRA (İnternational Public Relation Association) yaradılmışdır və bu təşkilat 70-ə yaxın ölkəni birləşdirir. Böyük Britaniyada iri "public relations" təşkilatı olan Mərkəzi informasiya bürosu çox mühüm rol oynayır və bu təşkilat dövlət idarələrinə və təşkilatlarına ictimai rəyin formalaşması sahəsində müxtəlif məsləhət xidmətləri göstərir.

1970-ci ildən etibarən "public relations" bütün dünyada geniş yayılmağa başlamışdır. Beynəlxalq Valyuta Fondunda və Avropa Yenidənqurma və İnkişaf Bankında ictimai əlaqələr üzrə müstəqil bölmələr fəaliyyət göstərir.

Azərbaycan da müstəqillik əldə etdikdən sonra ictimaiyyətlə əlaqələr sistemindən geniş istifadə edir. Demək olar ki, bütün dövlət təşkilatlarında, biznes qurumlarında, iri müəssisə və təşkilatlarda ictimaiyyətlə əlaqələr üzrə bölmələr fəaliyyət göstərir.

Son illər dünya bazarında, xüsusilə xarici istehlakçılar üçün nəzərdə tutulan əmtəə və xidmətlərin istehsalçılarının ictimai nüfuzunun əhəmiyyəti nəzərə çarpacaq dərəcədə güclənmişdir. Alıcı məhsul göndərənin və ya tədarükçünün imicini formalaşdıran təşəbbüskarlıq, etibarlılıq, operativlik və digər qeyri-maddi amillərə daha çox diqqət yetirir.

Buna görə də müasir şəraitdə əmtəələrin, xüsusilə kütləvi tələbat mallarının satışının təşkili zamanı reklam əmtəə haqqında yalnız biz informasiya ilə məhdudlaşırsa, bu reklam uğurlu ola bilməz. Əmtəə və xidmətlərin reklamının istehlakçılar üçün daha səmərəli fəaliyyət göstərməsi üçün onu qavramağa kömək edən fon, yəni mühit, şərait yaradılır, başqa sözlə, ilkin olaraq reklam təklifinin nüfuzu kifayət qədər təmin olunur. Nüfuzluluq institusional, korporativ səviyyədə və əmtəə səviyyəsində reklam tədbirləri ilə formalaşır.

Hər üç səviyyədə nüfuzlu reklam kampaniyalarının reallaşması əsasən ölkəyə, sahəyə, firmaya və bütünlükdə onun məhsuluna ictimaiyyətin xeyirxah münasibətinin qazanılmasına, yəni məhz ictimai nüfuzun qazanılmasına yönəlmiş "public relations" tədbirləri ilə həyata keçirilir.

"Public relations" ingilis dilindən tərcümədə ("ictimai əlaqələr", "ictimai münasibətlər", "ictimaiyyət üçün hekayə"), "ictimai rəyin öyrənilməsi və formalaşması" deməkdir.

Son 70 ilə yaxın bir dövrdə "public relations" anlayışının ən müxtəlif izahları təqdim edilmişdir. 1948-ci ildə Böyük Britaniyada yaradılmış İctimai Münasibətlər İnstitutu "public relations"a (PR) indiyə qədər mövcud olan aşağıdakı tərifi vermişdir: "public relations" müəssisə və ictimaiyyət arasında xeyirxah münasibətlərin və qarşılıqlı anlaşmanın yaradılmasına və saxlanmasına yönəldilmiş, planlaşdırılan, davamlı səylərdir.

1978-ci ildə 30-dan artıq milli və regional PR assosiasiyaları Meksikada bəyanat ilə çıxış etdilər. Bu bəyanatda "public relations"a aşağıdakı tərif verildi: "PR həm təşkilatların, həm də ictimaiyyətin maraqları naminə meyillərin təhlili, onların nəticələrinin əvvəlcədən deyilməsi, təşkilatların rəhbərlərinə tövsiyələrin verilməsi və fəaliyyət proqramlarının həyata keçirilməsi sahəsində sənət və elmdir. PR kütlə ilə bilavasitə ünsiyyətdir.

**(davamı gələn sayımızda)**

**F.M.Qarayev,**
**BDU-nun dosenti**






**Şəhid**

Vətənin yolunda canından keçən,
Sevgisin xalqına göstərən şəhid.
Düşmənlə üz-üzə vuruşan zaman.
Sinəsi gülləyə tuş gələn şəhid.

Səninlə fəxr edib qürur duyuram,
Xalqımın şərəfli oğlusan şəhid.
Azadlıq uğrunda canını verib,
Şəhidlik adını qazandın şəhid.

Tanrıdan biz rəhmət diləirik sənə,
Ruhun göylərdə qoy şad olsun şəhid.
Nə xalqın nə vətən unutmaz səni,
Daima qəlblərdə yaşayan şəhid.

**Fidan SOLTANLI**
**20/01/2013**

İDEAL DİZAYN
Daimi tərəfdaşınız
Ofis mebeli və layihələr
- Metal dolablar
- Metal stellaj sistemi
- Metal tumbalar
- Metal seyflər
- Metal masalar
Tel.: 012 480 37 55
E-mail: office@idealdizayn.az
www.idealdizayn.az



Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Milli Məclis Aparatının Ümumi şöbəsinin müdiri Tələtüm Quliyevə əzizi
**YAXŞIXANIM MİRZƏYEVANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi
Milli Məclis Aparatının Ümumi şöbəsinin müdiri Tələtüm Quliyevə əzizi
**YAXŞIXANIM MİRZƏYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 3150**